www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 aprel 2019-cu il Çərşənbə № 81 (7251) Qiyməti 60 qəpik

**Xəbər**

## Gənclərin intiharı ilə bağlı dəhşətli statistika

yazısı səh.10-da

# MOSKVA GÖRÜŞÜNÜN PƏRDƏARXASI: İNDİ DƏ "MEDVEDYEV PLANI"...

Azərbaycan XİN başçısının "2016-cı ildə Rusiya tərəfindən təqdim olunan plan əsasında müzakirə apardıq", - sözləri nədən xəbər verir?; Rusiya baş nazirinin təklifləri yenidən dövriyyəyə çıxır; **məlumatlı mənbə:** "Rusiya Qarabağla bağlı prosesi yenidən nəzarətə aldı"



yazısı səh.9-da

## Avropa İttifaqı ilə saziş mayda imzalanmayacaq-rəsmi

### Ekspert: "Bu proses ətrafında ciddi manipulyasiyalar başlayıb"

yazısı səh.8-də

**Gündəm**

### Prezidentin son fərmanları 600 min nəfəri sevindirdi



Sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq

yazısı səh.4-də

### Siyasi məhbuslara azadlıq yolu göründü-4 məhbus ərizə yazdı

yazısı səh.5-də

### YAP-ın dialoq təklifinə reaksiyalar

yazısı səh.6-da

### Jirinovski Rusiyanı Avropa Şurasından çıxmağa çağırdı

yazısı səh.8-də

### Kəlbəcər girovunun oğlu Şuşaya getmək istəyir

yazısı səh.3-də

### "Sabah"dan sensasion iddia: "Türkiyə S-400-ləri Azərbaycanda saxlaya bilər"

yazısı səh.3-də

### Taksilərdə siqaret qadağası qanunilәşdi: proses necə tənzimlənəcək?

yazısı səh.12-də

### "Hüseyn Abdullayev Almaniyadan zəng edib məni hədələdi"- məhkəmə

yazısı səh.3-də

### Parisin "damının" yanması: "Notr-Dam"ın tarixi

yazısı səh.13-də

### Yüz minlərlə adamı düşündürən sual: Badamdar yolu açılacaq, yoxsa...

yazısı səh.15-də

### "Enerji kollapsı"ndan tam sığorta- "Şimal-2" işə düşür

yazısı səh.14-də



### Aqil Abbasdan Məmmədyarova sərt sözlər

yazısı səh.5-də



Sevin Abbasova

### İşdən çıxarılan məktəb direktoru ev dustağı edildi

yazısı səh.7-də



### Zərdüşt Əlizadə liderləri ittiham etdi REAL-ı yeni müxalifət adlandırıldı

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019



## İlham Əliyev: "Paris Notr-Dam Kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim"

**"Fransanın və dünyanın mədəni irs incilərindən biri olan Paris Notr-Dam Kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim".**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi twitter səhifəsində yazıb.

"Ümid edirəm ki, abidə qısa müddət ərzində bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacaq", - dövlət başçısı bildirib.

## Azərbaycanda orta aylıq əmək haqqı 555 manata çatıb

**Bu il martın 1-nə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,2% artaraq 1 534,3 min nəfər təşkil edib.**

Dövlət Statistika Komitəsindən verilən xəbərə görə, bunlardan 865,3 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 669,0 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 21,8%-i təhsil, 18,8%-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,2%-i sənaye, 8,6%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1%-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,8%-i tikinti, 4,6%-i nəqliyyat və anbar təsərrüfatı, 3,5%-i peşə, elmi və texniki fəaliyyət, 3,2%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6%-i maliyyə və sığorta fəaliyyəti, 10,8%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

Bu ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,6% artaraq 554,9 manata çatıb. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Zakir Həsənov ABŞ-ın yeni səfiri ilə görüşdü

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ-ın ölkəmizdə yeni təyin olunan səfiri Örl Litzenberger ilə görüşüb.**



Müdafiə Nazirliyindən verilən məlumata görə, Z.Həsənov səfiri yeni təyinatı ilə əlaqədar təbrik edərək onun ölkəmizdə diplomatik fəaliyyəti dövründə Azərbaycan-ABŞ münasibətlərinin daha da genişlənəcəyinə əminliyini bildirib.

Azərbaycanla ABŞ arasında əlaqələrin NATO proqramları çərçivəsində və ikitərəfli əsasda qurulduğunu qeyd edən müdafiə naziri hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupu həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi İrəvan tərəfindən qəsdən yubadıldığını vurğulayıb. Nazir təəssüf hissi ilə bildirib ki, bir sıra aparıcı dövlətlər və beynəlxalq təşkilatlar bəzi münaqişələrdə iştirak edən tərəflərə təsir göstərdikləri halda, Dağlıq Qarabağ münaqişəsinə yanaşmada ikili standartlara yol verirlər.

Ö.Litzenberqer də öz növbəsində Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək fəaliyyəti müddətində ölkələrimiz arasında əlaqələrin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini vurğulayıb.

ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edən amerikalı diplomat ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

ABŞ-Azərbaycan əməkdaşlığının strateji əhəmiyyət kəsb etdiyini qeyd edən səfir Azərbaycan ordusunda aparılan islahatları izlədiyini və bu sahədə əldə edilən nailiyyətləri yüksək dəyərləndirdiyini diqqətə çatdırıb. İki ölkə arasında hərbi əməkdaşlığa toxunan Ö.Litzenberger Azərbaycan sülhməramlılarının Əfqanıstanda keçirilən missiyada iştirakından məmnunluq ifadə edib.

Sonra tərəflər regional və ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə ediblər.

## 20 yaşlı tələbə özünü asaraq intihar edib

**Sumqayıt Dövlət Universitetinin (SDU) tələbəsi intihar edib. "Report"un əldə etdiyi məlumata görə, aprelin 15-də SDU-nun Fizika fakültəsinin ikinci kurs tələbəsi 1999-cu il təvəllüdlü Elməddin Vüqar oğlu Bəşirov yaşadığı Binə qəsəbəsindəki evdə özünü asaraq intihar edib.**

İntiharın səbəbləri məlum deyil.

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda araşdırma aparılır.

SDU-dan isə "Report"a bildirilib ki, E.Bəşirov sonuncu dəfə universitetə aprelin 15-də gəlib.

## Paşinyan "super nazir" olur?

**Ermənistan Milli Assambleyasının dövlət-hüquq məsələləri üzrə komissiyasında hökumət strukturunda dəyişikliklərlə bağlı müzakirələr keçirilib. Burada iqtidar 17 nazirliyin yerinə 12 müvafiq qurumun yaradılmasını təklif edib.**

Ədliyyə naziri Artak Zeynalyanın sözlərinə görə, Diaspora nazirliyi ləğv olunaraq baş nazirliyin aparatı ilə birləşdiriləcək. Bundan başqa, bir çox ideoloji və siyasi vəzifələr, o cümlədən nazir müavinləri, müşavirlər ixtisar olunacaq.

## "Traktorsazi"nin adı dəyişdirilir




**Rəsmi sənədlərdə "Traktorsazi" adlanan Güney Azərbaycanın məşhur futbol komandasının adı dəyişdirilir. Qaynarinfo "GünAz TV"yə istinadən xəbər verir ki, "sazi" şəkilçisi komandanın adından rəsmi şəkildə ləğv olunacaq. Təbriz "Traktorqayırma" zavodunun adı ilə bağlı olan farsca "Traktorsazi" adı "Traktor" və ya azərbaycanlılar arasında deyildiyi kimi, "Traxtur" sözü ilə dəyişdiriləcək.**

Bundan əvvəl "Traxtur" klubunun sahibi cənab Zenuzi "Səhənd" telekanalına verdiyi müsahibədə ""Traktorsazi"nin adı dəyişdiriləcəkmi?" sualının cavabında buna işarə etmişdir. "Bu komanda onun tərəfdarlarına aiddir. Onlar istəsələr komandanın adını da dəyişmək mümkündür. Biz klubun kimlik və keçmişinə ziyan vurmadan bunu edə bilərik."- deyə o bildirmişdir.

Hələlik komandanın adına "Azərbaycan" sözünün əlavə edilib-edilməyəcəyi məlum deyil. Lakin böyük ehtimalla hökumət buna imkan verməyəcək. Baxmayaraq ki, bu ənənə İranda var, misal üçün, Məşhədin futbol komandasının adı Xorasan komandası ilə dəyişdirilib.

"Traktor" sözü farsca olmasa da "sazi" şəkilçisi fars dilinə aiddir. Ona görə də hökumətə bağlı qüvvələr komandanın "Traktorsazi" adlandırılmasına çalışır. Lakin bu komanda Güney Azərbaycanın bütün məntəqələrində istisnasız olaraq "Traxtur" adlanır. Təbriz klubunun tərəfdarları komandanın "Traxtur" adlandırılmasını uzun zamandır ki, tələb edir.

## İdmançımız dopinqə görə 4 illik diskvalifikasiya olundu



**Beynəlxalq Ağırlıqqaldırma Federasiyası dopinqə görə azərbaycanlı idmançıya sanksiya tətbiq edib. Modern.az xəbər verir ki, dopinq-testi müsbət nəticə verən Elmar Alıyev 4 il müddətinə diskvalifikasiya olunub. Onun orqanizmində qadağan olunmuş "Urine substitution" peraparatı tapılıb.**

Qeyd edək ki, 56 kq çəkidə çıxış edən ağırlıqqaldıran Elmar Alıyevin cəzası 12 sentyabr 2022-ci ildə başa çatacaq.

## Kartof, soğan və kələm ucuzlaşdı - rəsmi

**Bu ilin mart ayının sonunda və aprel ayının əvvəlində kartof, soğan və kələmin qiymətində ciddi artım müşahidə olunub.**

Bu barədə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin birgə açıqlamasında qeyd olunub.

Məlumatda həmçinin deyilir ki, daxili bazarın tənzimlənməsi və qiymətlərin sabitləşməsi məqsədilə kartof, soğan və kələmin ixracına müddətli rüsumun tətbiqi, soğan idxalına spesifik rüsumun may ayının 31-dək ləğv edilməsi, həmçinin faraş kartof, soğan və kələmin satışa çıxarılması nəticəsində bazarda bu məhsulların təklifi artmış və aprel ayının ikinci ongünlüyündən başlayaraq qiymətlərdə ucuzlaşma müşahidə edilir.

"Belə ki, artıq kartofun 1 kiloqramı bazarlarda 0,70 manatdan, marketlərdə 0,79 manatdan, soğanın 1 kiloqramı bazarlarda 0,70 manatdan, marketlərdə 1,09 manatdan, kələmin 1 kiloqramı bazarlarda 1,00 manatdan, marketlərdə isə 1,29 manatdan başlayan qiymətlərlə təklif olunur. Bu isə əvvəlki qiymətlərlə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. Mövsümlə bağlı bazara çıxarılan kartof, soğan və kələmin miqdarının artması ilə əlaqədar bu məhsulların daha da ucuzlaşacağı gözlənilir", - deyə məlumatda qeyd olunub.

## Üç azərbaycanlı ailə Belçikadan deportasiya olundu

**Belçika Krallığında üç azərbaycanlı ailə miqrasiya ilə bağlı saxta sənədləşdirmə ittihamı ilə ölkədən deportasiya olunub.**

"Report"un məlumatına görə, Azərbaycan əsilli Ağayev Nemət (3 nəfər), Nisanov Avram (3 nəfər) və Məmmədov Şirinə (2 nəfər) məxsus ailələr ölkədən çıxarılıblar.

Ailələrdən biri Rusiya, digər ikisi isə Ukrayna vətəndaşıdır. Azərbaycanlı ailələr vətəndaşları olduqları ölkələrə göndəriliblər.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# Radikal dini qruplar və mediada din mövzusu müzakirə olundu

## Mediada dini mövzuların işıqlandırılması ilə bağlı irəliləyiş var, amma ekspertlər hələ də problemlərin olduğunu deyir

**Aprelin 16-da Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi "Dini-ideoloji təhlükəsizlik və media" mövzusunda konfrans keçirdi. Konfransda DQİDK rəhbərliyi, Prezident Administrasiyasının, QMİ-nin, Elmlər Akademiyasının təmsilçiləri iştirak edirdi.**

Tədbirin açılış çıxışını edən DQİDK sədri Mübariz Qurbanlı din və medianın qarşılıqlı fəaliyyəti barədə danışdı. Komitə sədri bildirdi ki, bəziləri dini ideologiya kimi təqdim etməyə çalışsa da, əslində din ideologiya deyil: "Din bir yoldur. Əsas budur ki, din siyasət deyil. Dini siyasiləşdirmənin nəticəsidir ki, zaman-zaman böyük fəlakətlər yaşanıb".

Komitə sədri bildirdi ki, media milli ideologiyanın təhlükəsizliyinin qorunması, təhlükəli dini fikirlərə öz səhifələrində yer verməməlidir.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov** media və dini qurumlarla əməkdaşlıq mövzusunda xeyli nailiyyətlərin olduğunu bildirdi. Ə.Amaşov bildirdi ki, bu günə qədər media və din mövzusunda 10-a qədər belə tədbirlər keçirilib. Eyni zamanda QMİ ilə birlikdə bu mövzuda əməkdaşlıq etdiklərini qeyd edən şura sədri dindən yazan jurnalistlərin peşəkarlığının artırılması üçün fəaliyyət göstərdiklərini dedi: "Hesab edirəm ki, bu sahədə ciddi məsafə qət etmişik".

Daha sonra ölkəmizdə baş verən bir sıra hadisələri qeyd edən MŞ sədri hazırda dünyada gedən müharibələrin böyük əksəriyyətinin dini və milli səbəblərlə baş verdiyini, bəzi maraqlı qüvvələrin dindən alət kimi istifadə etdiyini qeyd etdi. Ə.Amaşov bildirdi ki, Nardaran, Gəncə hadisələri və bəzi məscidlərdə baş verən hadisələr zamanı media özünü ümumi olaraq yaxşı aparıb. Eyni zamanda şura sədri bildirdi ki. əksər hallarda xarici ölkələr ölkədəki dini vəziyyəti qızışdırır: "Gəncə hadisələri zamanı konkret olaraq qonşu ölkələr İran, Rusiyada fəaliyyət göstərən media orqanları qızışdırıcı fəaliyyət göstərdi".




**Prezident Administrasiyası multikulturalizm və millətlərarası münasibətlər şöbəsinin böyük məsləhətçisi Əliheydər Zülfüqarov bildirdi ki, hazırda mediada din sahəsində peşəkar yazan jurnalistlər var. Ancaq PA rəsmisinin sözlərinə görə, indi sosial media nəzarətsiz məkan olduğu üçün radikal qruplar buradan istifadə edir. Eyni zamanda o, Azərbaycandakı dövlət-din münasibətlərinin xarici ekspertlər tərəfindən nümunə olaraq göstərildiyini, dini icmaların fəaliyyətinə dövlət tərəfindən dəstək verildiyini və bu zaman həm müsəlman, həm də qeyri-müsəlman icmalara bərabər münasibət göstərildiyini qeyd etdi. Ə.Zülfüqarov dini-ideoloji sahədə müəyyən təhdidlərin də olduğunu qeyd etdi:** "Aparılan araşdırmaların nəticəsi göstərir ki, radikal qruplar azərbaycançılıq fikrinə qarşıdırlar, ümumiyyətlə, hər hansı kimlik fikrinə qarşıdırlar".

QMİ sədrnin müavini Qəmər Cavadlı bildirdi ki, QMİ sədri Şeyxülislam Azərbaycanda media və din münasibətlərində müəyyən boşluqlar olduğunu bildirib. Onun sözlərinə görə, mediada dini cəhalət var. QMİ sədrinin müavini deyir ki, bir sıra media nümayəndələri din sahəsində biliklər malik olmur.

**Elmlər Akademiyası Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə bildirdi ki, qloballaşma dövründə Azərbaycanda kənardan dini ideologiya təsirləri olur. Azərbaycanın qlobal tranzit yolu üzərində yerləşdiyini qeyd edən natiqin fikrincə, ölkəmizə indi təkcə Qərbdən deyil, Şərqdən ideoloji təsir gəlir:** "Bunun qarşısında media dayana bilər. Ancaq indi mediadan daha çox sosial şəbəkənin təsiri güclüdür. Çünki sosial şəbəkədə yalan xəbərlər daha sürətlə yayılır. Bu təsirlərə qarşı elmin də rolu var. Çünki elm həqiqətləri ortaya qoyur".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov isə sosial şəbəkənin rolundan danışdı. Onun fikrincə, ənənəvi mediada filtr və senzura mümkün olsa da, sosial şəbəkələrdə bu mümkün deyil. Sosial şəbəkələrdə bu cür nəzarət mümkün deyil və radikal qruplar buradan istifadə edir.

Daha sonra BDU-nun dekanı Vüqar Əliyev beynəlxalq mediada dini mövzuların işıqlandırılması ilə bağlı geniş təqdimat həyata keçirdi. Dekan bildirdi ki, dinin düzgün şəkildə təbliğ edilməsində medianın əvəzsiz rolu var. İnternetdə daha çox İslam əleyhinə, İslam düşmənçiliyi yayan materiallar olduğunu qeyd edən V.Əliyevin sözlərinə görə, bir çox hallarda bu, məqsədli şəkildə aparılan təbliğatın nəticəsi olur. Onun sözlərinə görə, radikal dini qruplar mediadan, xüsusən də son illərdə sosial mediadan sui-istifadə edir.

**Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# "Hüseyn Abdullayev Almaniyadan zəng edib məni hədələdi" - məhkəmə

## Elnur Məmmədov: "Mənə dedi ki, icarə haqqını ödəməsən, sənin başına oyun açacağam"

**Bakı Hərbi Məhkəməsində 2018-ci ilin aprel ayında Türkiyədə saxlanılaraq Azərbaycana təhvil verilən, qanunsuz sahibkarlıq, dələduzluq, hədə-qorxu ilə tələb etmə və vergidən yayınma kimi əməllərdə ittiham olunan sabiq deputat Hüseyn Abdullayev və anası Zeynəb Abdullayevanın cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**



Musavat.com-un xəbərinə görə, Abdullayevlərlə birgə məhkəmə qarşısına daha 7 nəfər - Həbib İbrahimov, Xalid Əliyev, Namiq Babayev, İntiqam Süleymanov, Pərviz Kazımov, Zaur Quliyev və Nazim Əliyev çıxarılıb. Adları çəkilən şəxslər arasında sərhədçilər də var.

Prosesdə zərərçəkmiş qismində dindirilən **Bakı Autizm İdman və Yaşam Klubunun direktoru Elnur Məmmədov** sabiq deputat tərəfindən hədə-qorxulara məruz qaldığını bildirib. O, H.Abdullayevə məxsus obyekti kirayə götürdüyünü, bir müddət icarə haqqını gecikdirdiyini, bu səbəbdən də sonuncunun ona Almaniyadan zəng vurub hədələdiyini deyib: "Mənə dedi ki, icarə haqqını ödəməsən, sənin başına oyun açacağam. Onun dediklərindən qorxuya düşdüm. Buna görə özümü zərərçəkən hesab edirəm. Sonradan icarə haqqını ödəmişəm".

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində maliyyəçi vəzifəsində işləmiş Rəcəb Rəcəbov H.Abdullayevdən şikayətçi olmadığını deyib. Sabiq deputat zərərçəkmişə sual vermək istəyib. Lakin hakim təqsirləndirilən şəxsə onun ifadə verməsiyini xatırladıb. Və bunu əsas gətirərək sözünü kəsib.

Məhkəmə prosesi aprelin 18-də davam edəcək.

Xatırladaq ki, Almaniyada sığınacaq almış H.Abdullayev 2018-ci ilin aprelində Türkiyədə saxlanılaraq, Azərbaycana təhvil verilib.

İttihamda yazılıb ki, müxtəlif adamların şikayətləri əsasında 14 fevral 2018-ci ildə cinayət işi başlanıb. 2006-cı ildən H.Abdullayevin nəzarətində olan "Araz-İnşaat" ASC ilə bağlı araşdırma aprılıb, səhmdarlara yalan məlumat verilməklə, 1 milyon 374 min manatlıq gəlir mənimsənilib.

İttihama görə, Z.Abdullayevanın ölkədən çıxışına qadağa olmasına baxmayaraq, o, bacısının pasportu ilə bir neçə dəfə ölkədən çıxıb və bir müddət sonra geri qayıdıb. Cinayət məsuliyyətinə cəlb olunanlar arasında sərhədçilərlə yanaşı, Z.Abdullayevanı maşınla sərhəd məntəqəsinə aparmış N.Əliyev də var.

İş üzrə zərərçəkmiş şəxs qismində 28 nəfər tanınır.

H.Abdullayev özünü təqsirli bilmir və siyasi sifarişlə həbs olunduğunu deyir.



# Kəlbəcər girovunun oğlu Şuşaya getmək istəyir

## Kürdoğlu Əsgərov: "Əgər dövlət mənim Şuşaya getməyimə və atamı görməyimə müsbət qərar verərsə..."

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında iki gün öncə Moskvada keçirilən görüşdə Azərbaycan və Ermənistan tərəfində olan əsir və girovların ailə üzvləri ilə görüşməsinə şərait yaradılması barədə razılıq əldə olunduğu bildirilir. Kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevlə hazırda saxlandıqları Şuşa türməsində görüşün təşkil oluna biləcəyi bildirilib.**

Qeyd edək ki, ötən həftə Ermənistanın baş naziri Nikol Paşinyan əsir və girovların yaxınları istəyəcəyi halda onlarla görüşün mümkün olduğunu bəyan etmişdi. Paşinyanın açıqlamasından bir həftə sonra nazirlərin sözügedən məsələ barədə razılıq əldə eləməsi girovlarla görüşün reallaşa biləcəyindən xəbər verir.

**Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ona bu məsələ barədə hökumətdən hələ heç bir məlumat və ya təklif verilməyib:** "Əgər dövlət mənim Şuşaya getməyimə və atamı görməyimə müsbət qərar verərsə, əlbəttə ki, atamı ziyarətə gedəcəyəm".

Bəs belə bir görüşün reallaşması mümkündürmü? Əsir və Girovlar üzrə Beynəlxalq İşçi Qrupun xətti ilə görüş həyata keçirilə bilərmi?

**Əsir və Girovlar üzrə Beynəlxalq İşçi Qrupun üzvü Əvəz Həsənov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanla Ermənistan arasında bu razılaşmanın əldə olunması təqdirəlayiqdir:** "Bu, reallaşması asan olan bir məsələdir. Bundan ötrü təbii ki, hökumət hazırda Dağlıq Qarabağda saxlanılan azərbaycanlıların yaxın qohumlarına müraciət edə bilər. Onların Beynəlxalq Qırmızı Xaç Komitəsinin və ya Beynəlxalq İşçi Qrupunun vasitəsilə Dağlıq Qarabağda getmələrini təşkil etmək olar. Burada ciddi bir problem yoxdur. Ermənistan tərəfinin razılığı olacaqsa, bu səfər reallaşar. Vaxtilə bizim Beynəlxalq İşçi Qrupu belə bir təkliflə çıxış eləmişdi, lakin bu təklifə ciddi əhəmiyyət verilməmişdi".

Xatırladaq ki, Dilqəm Əsgərov və Şahbaz Quliyev 2014-cü ilin iyulunda yaxınlarının məzarını ziyarət etmək üçün Kəlbəcər rayonuna gediblər. İşğalçı Ermənistan ordusunun əsgərləri onları ələ keçirib. Dağlıq Qarabağda onlara qondarma məhkəmə qurulub. Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 20 il azadlıqdan məhrum edilib. 5 ilə yaxındır hər iki mülki azərbaycanlı Şuşa türməsində girov saxlanılır. Onlardan başqa Elnur Hüseynzadə adlı azərbaycanlı keçmiş hərbçi Ermənistanda əsir saxlanır.

Azərbaycan tərəfində isə hazırda üç erməni diversant (Arsen Baqdasaryan, Zaven Karapetyan, Karen Kazaryan) saxlanılır.

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Sabah" yazarından sensasion iddia: "Türkiyə S-400-ləri müvəqqəti Azərbaycanda saxlaya bilər"

**"Türkiyə S-400-lər müvəqqəti Azərbaycanda saxlaya bilər".**

Axar.az xəbər verir ki, bu iddia ilə "Sabah" qəzetinin yazarı Okan Müdərrisoğlu çıxış edib. S-400-lərin təslim edilməsindən sonra onların Azərbaycan və Qətərdə saxlanılması məsələsi masadadır. S-400-lər F-35-lərə risk yaratmayacaq şəkildə yerləşdirilir. ""S-400-lər alınar, başqa bir yerdə durar" yanaşmasından o tərəfə keçəcək həlli Ankaradan gözləmək həddən artıq optimistlik olar", - deyə o bildirib.

"A Haber" televiziyası da məsələ ilə bağlı məlumat yayıb.

Qeyd edək ki, bundan öncə 100 Türkiyə hərbçisinə Azərbaycanda S-300 sistemlərinin öyrədiləcəyi haqqında məlumat yayılmışdı.

## 10 aylıq körpəsini boğub öldürdü-Ağdamda dəhşət

**Ağdam rayonunda baş verən dəhşətli qətlin təfərrüatı məlum olub.**

"Report"un Qarabağ mərkəzinin məlumatına görə, hadisə ra-



yonun Qərvənd kəndində qeydə alınıb.

Belə ki, həmin kənddə müvəqqəti məskunlaşan Laçın rayonundan məcburi köçkün, 1992-ci il təvəllüdlü Günel Şahsevər qızı İsmayılova 10 aylıq körpə qızını boğaraq öldürüb. O, hadisədən sonra Ağdam Rayon Polis Şöbəsinə gedərək könüllü təslim olub və saxlanılaraq istintaqa cəlb olunub.

Bildirilib ki, 27 yaşlı G.İsmayılova bir müddət əvvəl ikinci dəfə ailə həyatı qurub və ailədə tez-tez münaqişələr baş verib. Nəticədə boşanmaq ərəfəsində olan qadın övladını boğaraq öldürüb. Öldürülən uşaq ailənin tək övladı olub.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda araşdırma aparılır.



## Bakı sakini bir bacısını qətlə yetirdi, o birini yaraladı

**Bakıda bacılarına xəsarət yetirərək birini qətlə yetirən şəxs tutulub.**

Daxili İşlər Nazirliyi mətbuat xidmətindən verilən məlumata görə, aprelin 16-da saat 1 radələrində Xəzər rayonunun Buzovna qəsəbəsi Albalılıq yaşayış sahəsində yaşayan Səadət Əlimanovanın evinə gəlmiş qardaşı, əvvəllər məhkum olunmuş Muxtar Əlimanov ailə-məişət münaqişəsi zəminində ona və orada yaşayan digər bacısı Məlahətə bıçaqla xəsarət yetirib.

Səadət hadisə yerində ölüb, Məlahət isə xəstəxanaya yerləşdirilib.

Polis və prokurorluq orqanları əməkdaşlarının keçirdikləri təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində qəsdən adam öldürməkdə şübhəli bilinən M.Əlimanov tutulub.

Araşdırma aparılır.

## Şamaxı və İsmayıllı yenidən silkələndi



**"Şamaxı, İsmayıllı və Ağsu zonasında afterşoklar hələ də davam edir. Zəlzələ ocağının tam sönməsi hələ ki mümkün deyil. Hazırda orada 0,5, 0,7, 1,2 bal gücündə zəlzələlər qeydə alınır. Bu gün də Pirqulu stansiyası yaxınlığında bir neçə yeraltı təkanlar qeydə alınıb".**

Bunu Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli deyib.

O bildirib ki, həmin zonada fevralın 5-dən bu günə qədər 1000-dən çox afterşoklar qeydə alınıb: "Amma zona üçün heç bir təhlükə gözlənilmir. Hazırda Azərbaycanda zəif təkanlar müşahidə olunur. Onların çoxu hiss olunmayanlardır. Amma aprelin 14-ü gecə saatlarında Lənkəranda baş verən zəlzələ 3 bala kimi hiss olunub. Bu cür təkanlar heç bir dağıntı əmələ gətirən deyil. Sadəcə olaraq, ölkə prezidentinin humanistliyindən istifadə edənlər arasında tövləsində çatlar əmələ gələnlər də bunun zəlzələ nəticəsində baş verdiyini iddia edir. Bu, artıq bir dəb düşüb. Axı 3 bala kimi hiss olunan zəlzələ heç bir çat əmələ gətirə bilməz. Buna baxmayaraq, Lerikdə kənd sakini evinin uçduğunu iddia edib".

Q.Yetirmişlinin sözlərinə görə, Azərbaycanda gün ərzində 5-7 təkan baş verir: "Ölkə ərazisində il ərzində 4000-ə qədər zəlzələ olur. Bunların içərisində hiss olunanı da, olunmayanı da və dağıdıcı olanları da var". (Report)

# Prezidentin son fərmanları 600 min nəfəri sevindirdi

## Sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq

**Prezident İlham Əliyev aprelin 15-də bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin artırılmasına dair fərman və sərəncamlara dəyişiklik edib.**



Belə ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" prezidentin 2013-cü il tarixli fərmanında dəyişiklik edilməsinə dair fərmana əsasən aprelin 1-dən əlillik "ümumi xəstəlik", "hərbi xidmət dövründə xəstələnmə", "əmək zədəsi və peşə xəstəliyi", "hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar", "Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar", "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar", "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və ya "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" səbəbindən baş verdikdə aylıq müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılır.

Bundan əlavə, aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manat, ailə başçısını itirməyə görə 80 manat (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manat (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. Fərmanda 2013-cü il 29 avqust tarixli 973 nömrəli fərmanın müvafiq yarımbəndindəki "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş" sözlərinin "müharibə ilə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilməsi tapşırılır.

İmzalanan digər bir fərmanla isə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 55 manata (hər uşaq üçün) çatdırılır.

15 aprel 2019-cu il tarixdə imzalanan daha bir fərmanla "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli fərmanda "Müharibə əlillərinə" sözlərinin "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə" sözləri, "əlil olan" sözlərinin "əlilliyi müəyyən olunmuş" sözləri ilə əvəz edilməsi tapşırılır. Habelə qeyd olunan 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli fərmanın aid olduğu şəxslərin (Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən sağlamlıqlarını itirərək əlilliyi müəyyən edilmiş şəxslərin) sırasına 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər də daxil edilir. Beləliklə, prezidentin aylıq təqaüdü fərmanın əhatə etdiyi kateqoriyalardan olan I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə - 230 manat, III dərəcə əlilliyi olan şəxslərə - 210 manat müəyyən olunur.

Dövlət başçısının imzaladığı digər bir fərman isə ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə (əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası almasından asılı olmayaraq) prezidentin aylıq təqaüdü kimi 100 manat təqaüdün verilməsini nəzərdə tutur. Beləliklə, bu fərman bir tərəfdən həmin kateqoriyalardan olan I qrup əlilliyi olan şəxslərə prezidentin aylıq təqaüdünün artırılaraq 100 manata çatdırılmasını, digər tərəfdən, həmin təqaüdün əmək pensiyası alan I qrup əlilliyi olan şəxslərə də ödənilməsini (bu vaxta qədər yalnız aylıq sosial müavinət alan I qrup əlilliyi olan şəxslərə ödənilirdi) təmin edir.

Prezidentin 15 aprеldə imzaladığı digər fərmanında isə I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Prezident təqaüdünün təsis edilməsi və onun aylıq məbləğinin 50 manat müəyyən olunması nəzərdə tutulur. Bu fərmanda həmin təqaüdün 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Qanunda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə və təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənildiyi qeyd olunur.

"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli fərmanda isə müharibə veteranlarına prezidentin aylıq 80 manat məbləğində təqaüdünün təsis olunması tapşırılır. Fərmanda qeyd olunur ki, bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkələrdə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

İ.Əliyevin aprelin 15-də imzaladığı daha bir sənədlə - 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə prezidentin aylıq təqaüdünün məbləği 150 manata çatdırılır.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən "Yeni Müsavat"a verilən məlumata görə, imzalanan sərəncam və fərmanlar 600 minədək şəxsin (o cümlədən 300 min əlilliyi olan şəxsin) sosial müavinətlərinin, prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artırılmasını, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün prezidentin aylıq təqaüdlərinin təsis olunması ilə sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur:** "Qeyd olunan məqsədlər üçün əlavə olaraq illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq".

❑ **İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019



# Aqil Abbasdan Məmmədyarova sərt sözlər

## “Elmar Məmmədyarov Xarici İşlər Nazirliyinin əməkdaşlarından bir komanda düzəldə bilər və gedib İrəvanda ermənilərlə futbol oynayarlar”

**Aprelin 15-də xarici işlər nazirlərinin Moskva görüşünün yekununda Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, İrəvana və Dağlıq Qarabağa səfərlərinin təşkili barədə razılıq əldə olunub.**

Bəs əslən Qarabağdan olan jurnalistlərin belə bir razılaşmaya münasibəti necədir? Onlar İrəvana və Qarabağa səfər etmək istəyirlərmi?

Əməkdar jurnalist, Ağdamın deputatı Aqil Abbas “Yeni Müsavat”a bildirdi ki, işğal altındakı Qarabağa yalnız əlində silahla, Azərbaycan əsgərləri ilə gedə bilər: “Ağdama gedərəm və əlimdə silah. Bu, məsələnin bir tərəfi. İkinci tərəfinə gəlincə, Elmar Məmmədyarovun açıqlamasını oxudum və xeyli güldüm. Sağ olsun Elmar Məmmədyarov, uzun mübarizədən sonra ermənilərlə belə bir razılığa gəlib ki, erməni və azərbaycanlı jurnalistlərin səfərlərini təşkil etsinlər. Bir futbol yarışı da təşkil eləsə yaxşıdır ki, bizim jurnalistlərlə İrəvan jurnalistləri Xankəndində gedib futbol yarışı keçirsinlər. Yaxud da Elmar Məmmədyarov Xarici İşlər Nazirliyinin əməkdaşlarından bir komanda düzəldə bilər və gedib İrəvanda ermənilərlə futbol oynayarlar. Bununla da Qarabağ məsələsi "həll" olunar. Elmar Məmmədyarovla erməni nazirin görüşü uşaqların oynadığı “evcik-evcik oyunu”na bənzəyir".



### Qarabağdan olan jurnalistlərin qarşılıqlı səfərə münasibəti necədir?

**Musavat.com-un redaktoru Xalid Kazımlı qarşılıqlı səfərlərin əleyhinədir:** “Mən ona görə bu cür səfərlərin təşkilinə qarşıyam ki, müharibə davam edir. İki düşmən və "sürünən müharibə" vəziyyətində olan ölkənin jurnalistlərinin gediş-gəlişi anormal haldır. Burada məqsəd məkrlidir. Bu təşəbbüsün sahibinin niyyəti mövcud durumu dondurmaq, münaqişəni həll etmədən bu cür saxlamaq və tərəflərin bu durumla barışmasını təmin etməkdir. Jurnalistlərin qarşılıqlı səfərlərinin ardınca başqa peşə sahiblərinin gediş-gəlişi də başlayacaq, get-gedə emosiyalar soyuyacaq, qarşılıqlı iltifatlar, dostluqlar yaranacaq və Qarabağ unudulacaq".

**“İşğal altında olan torpaqlarımıza getməzdim. Bu, mənim üçün travma deməkdir. O torpaqlar işğaldan azad olunanda gedərik. Ermənistana isə səfər etmək olar. Bu, məqbuldur”.**

**“Novator.az” saytının baş redaktoru, əslən Laçından olan Azər Qaraçənli bildirdi ki, hər bir münaqişənin qansız həll olunması ən yaxşı variantdır. Amma məhz həll olunması, yalandan oyun oynanılması yox:** “Hamımıza bəllidir ki, Ermənistanla Azərbaycan arasında müharibəni Rusiya salıb, münaqişənin həll olunmasına imkan verməyən əsas qüvvə də Rusiyadır. Ayrı qüvvələr də var, amma başda Rusiya durur.

Ötən il Ermənistanda, deyəsən, Rusiyanın iradəsindən kənar baş vermiş hakimiyyət dəyişikliyindən sonra Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlarda müəyyən yeniliklər hiss olunur. Azərbaycanlı və erməni jurnalistlərin qarşılıqlı səfərlərinin təşkil olunması barədə razılaşma da bu yeniliklərdən biridir. Oxşar proses danışıqların qabaqkı mərhələlərində də olub, amma sonradan dayandırılıb. Mən belə səfərlərin ədalətli sülhə yardım edəcəyinə inanmıram, bunu keçmiş təcrübə sübuta yetirib. Rusiyanın indiki güclü və çox aqressiv vəziyyətində münaqişənin rus qoşunlarının Azərbaycana, xüsusilə Qarabağ bölgəsinə yeridilmədən həll oluna biləcəyinə, yəni Rusiyanın buna razılaşa biləcəyinə inanmıram. Hələlik Rusiya yalnız rus qoşunlarının Azərbaycana yeridilməsi şərti qəbul edilsə, hansısa sülhə imkan verə bilər. Bu isə bizim üçün növbəti faciə olardı. İndiki sülh oyununun məqsədi axırda rus qoşunlarını Azərbaycan torpağına yeritməkdirsə, onda biz birmənalı şəkildə buna qarşı çıxmalıyıq. Cəmiyyət siyasi cəhətdən ayıq-sayıq olmalıdır. Danışıqlar qapalı aparılsa da, cəmiyyət onun mühüm hissələrini duymağı bacarmalıdır. Rusiya son danışıqlara, razılaşmalara sakit yanaşırsa, deməli, onun burada hansısa marağı təmin olunur, yaxud belə bir təminata vəd verilir. Bu da ilk növbədə Rusiya qoşunlarının Azərbaycana qaytarılması ola bilər. Mən şübhələnirəm ki, bütün bunların jurnalistlərin qarşılıqlı səfərləri barədə razılaşmaya da aidiyyəti var.

Elə çıxmasın ki, mən belə səfərlərə yalnız siyasi motivlərlə pis baxıram. Yox, mən torpağı işğal olunmuş ölkənin vətəndaşı, jurnalistiyəm və belə səfərlərə mənəvi motivlərlə də münasibətim mənfidir. Ancaq indi elə həssas, elə vacib məqamdır ki, mən mənəvi motivlərdən çox siyasi motivlərin üstündə dayanmaq istəyirəm.

Danışıqları diplomatlar və siyasətçilər aparır, qoy onlar nə danışdıqlarını, “sülh” deyəndə hansı sülhü nəzərdə tutduqlarını, Qarabağda “təhlükəsizliyin təmin olunması” deyəndə bunu Rusiya qoşunları hesabına edib-etməyəcəklərini ortaya qoysunlar, ondan sonra biz də bilək görək jurnalistlərin qarşılıqlı səfərləri nədən ötrüdür: sülhdən ötrü, yoxsa bizi yeni faciələrə düçar etməkdən ötrü. Mən nə Ermənistana, nə də erməni-rus işğalı altında olan Qarabağa gedəcəm. Getmək istəyənləri də dediklərim barədə düşünməyə çağırıram. Əlimdən başqa heç nə gəlmir. Mən sülh tərəfdarıyam. Münaqişənin qansız, danışıqlarla həll olunmasını istəyirəm. Amma məhz həll olunmasını, yeni və daha ağır problemlərin yaradılmasını yox.

Yeri gəlmişkən, təklifim də var. Onu da “Yeni Müsavat”ın oxucularına çatdırmaq istərdim. Təklif edirəm ki, Ermənistanla sülh sazişi imzalanmazdan qabaq paytaxtımız Bakı şəhərindən köçürülsün. Ya boş ərazilərimizin birində yeni paytaxt salınsın, ya da şəhərlərimizdən biri paytaxta çevrilsin. Bunun sosial, iqtisadi, mədəni əhəmiyyətini bir qırağa qoyuram. İndi bunun yeri deyil. Bu təklifi sırf xalqımızın təhlükəsizliyi, Rusiyanın işğalından qoruna bilməyimiz üçün irəli sürürəm. Biz Ermənistanla sülh sazişi imzalayana qədər paytaxtımızı dəyişməliyik".

**Modern.az saytının baş redaktoru, Kəlbəcərdən olan Elşad Eyvazlı isə dedi ki, əgər tərəflər arasında razılıq əldə olunubsa, bizim ona mane olmağa gücümüz yoxdur. Bu, xalq diplomatiyasının tərkib hissəsidir:** “Düşünürəm ki, qarşılıqlı səfər edən jurnalistlər gördüklərini yox, onlara diktə ediləni yazacaqlar. Bu, normaldır. Hesab edirəm ki, Qarabağ məsələsini dərindən bilən, ingilis və rus dillərini bilən, analitik təhlil, müşahidə qabiliyyəti olan jurnalistlər səfərə getməlidir”.

**Cəbrayıl rayonundan olan tanınmış jurnalist Seymur Verdizadə isə bildirdi ki, sülh danışıqlarının əleyhinə deyil. Amma Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır:** “Jurnalistlərin səfəri məsələsinə gəlincə, mən jurnalist statusu ilə hələlik heç bir səfərdə iştirak etmək istəmirəm. Mən Cəbrayıla İrəvandan gedə bilmərəm.

Bu utancı qaldıra bilmərəm. Lələtəpədən bizim kəndimizə yarım saatlıq yoldur. Mən həmin marşrutu təklif edirəm. Əlimdə silah öndə getməyə, bələdçilik etməyə hazıram”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Siyasi məhbuslara azadlıq yolu göründü - 4 məhbus ərizə yazdı

## Novella Cəfəroğlu: “Ərizə yazmaq qəbahət deyil”

**Hüquq müdafiəçiləri tərəfindən siyasi məhbus kimi tanınmış dörd məhbus vaxtından əvvəl şərti azadlığa buraxılmaları haqda xahişlə məhkəmələrə müraciət ediblər.**

Bu barədə “Turan”a “Hamısını azad et!” ictimai kampaniyasının təşəbbüskarlarından biri, hüquq müdafiəçisi Rəsul Cəfərov bildirib.

Onun sözlərinə görə, ötən həftə Baş Prokurorluğa və Penitensiar Xidmətə siyasi məhbusların azad edilməsi haqqında müraciətlər göndərildikdən sonra məhbuslar özləri onların vaxtından əvvəl azad edilməsinin hüquqi mexanizmlərindən istifadə etməyə başlayıblar.

Xüsusən “Səid Dadaşbəylinin işi” üzrə üç məhbus - Dadaşbəyli özü, Cahangir Kərimov və Ceyhun Əliyev vaxtından əvvəl şərti azadlığa buraxılmaları haqqında rayon məhkəmələrinə müraciət ediblər. Dadaşbəyli və Kərimovun 13,5 illik azadlıqdan məhrumetmə cəzalarının 1 il üç ayı qalıb. Hepatit-B-dən əziyyət çəkən Əliyevin isə 14 illik həbs cəzasının 1 il 9 ayı qalıb.

Hər üçü cəzalarının 3/4-nü çəkdikləri üçün vaxtından əvvəl şərti azadlığa buraxılmalarını xahiş etmək hüququna malikdirlər.

2017-ci ilin sentyabrında üç il müddətinə azadlıqdan məhrum edilmiş “Azadlıq” qəzetinin regional müxbiri Ziya Əsədli də ərizə yazıb. O, cəzasının yarısından çoxunu çəkməsi ilə əlaqədar vaxtından əvvəl şərti azadlığa buraxılmaq hüququna malikdir.



Xahiş ərizələrinin yazılması bir sıra müzakirələr doğurub.

**Əfv siyahılarının hazırlanmasında fəal iştirak edən hüquq müdafiəçisi Novella Cəfəroğlu “Yeni Müsavat”a açıqlamasında ərizə yazan məhbusların tezliklə azadlığa buraxılacağını bildirdi:** “Ərizə yazmaq qəbahət deyil. Məhbus yazmır ki, məni bağışlayın. O yazır ki, məni vaxtından əvvəl buraxın. Hamısı ərizə yaza və bu ərizəyə baxılıb azad oluna bilər. Gözləmək lazımdır deyil ki, mayda kimlərsə buraxılacaq. Bizim ümidlərimiz də çoxdur. Amma bilmirik ki, bu olacaq ya yox. Nəsə demək olduqca çətindir. Məhkəmələr və ərizələr yolu ilə onlar azad oluna bilərlər. Hökumət burada güzəştə getməli və onların hamısını məhkəmələr yolu ilə azad etməlidir. Çünki onların həbs müddətlərinin başa çatmasına çox az qalıb. Təsəvvür edin ki, cəza müddətlərinin bitməsinə 3-4 ay, yaxud 1 il üç və ya dörd ay qalanlar var. O məhbusları kimsə məcbur etmir ki, ərizə yazsınlar. Ərizə yazanları da qınamaq olmaz. İndiyə qədər çox ərizə görmüşük. Hökumət güzəştlərə getməlidir. Biz belə məhbusların həbsdə qalmamaları məsələsini qaldırmışıq. Düşünürəm ki, burada anlaşılmazlıq olub. Onların hamısı əfvlə azad olunmalı idilər. Bizim siyahıda onların hamısı var idi. Avropa Şurasında bu məsələnin müzakirə edilməsinin bizim üçün elə də əhəmiyyəti yoxdur. Çünki hər şey Azərbaycanda həll olunur. Doğrudur, beynəlxalq təşkilat bizim üçün çox vacibdir, bizə köməklik edirlər. Amma istəsək də, istəməsək də məsələlər Azərbaycanda həll olunur. Bu günləri hökumət məmurlarından çox şey asılıdır. Maya qədər o məhbuslar azad olunsalar çox yaxşı olar. Hesab edirəm ki, bunu etmək olar. Bu çox vacibdir. İlin sonuna qədər deyil, ondan daha tez həmin məhbuslar azad olunacaqlar. Buna çox əminəm. Ona görə belə rahatam”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Müxalifətin dağılan (it)tifaqları...

## Qulamhüseyn Əlibəyli: "Müxalifət özü-özünü dağıdır"

**Azərbaycan Xalq Hərəkatının dönəm sədri, AĞ Partiya başqanı Tural Abbaslı ilə sabiq daxili işlər naziri İsgəndər Həmidov arasındakı davadan sonra qurumun daxilində yarım aydır davam edən gərginlik səngimir. Artıq AXH faktiki olaraq dağılmaq təhlükəsi ilə üz-üzə qalıb.**

İndiyə qədər müxalifət daxilində yaradılan birliklərin ömrünün çox qısa olması, xalqa ümid verib, bir anda belə gərginliklərlə xəyal qırıqlığının yaradılması məsələsi yenidən gündəm olub.

Müxalifətin ötənlərdə yaratdığı bloklar, birliklər daha çox bir seçkiyə hədəflənib və seçkilər bitər-bitməz daxildə narazılıqlar baş qaldırıb, qarşılıqlı ittihamlar havada uçuşub, nəticədə bu təşkilatlar hədəfinə çatmadan tarix olublar. Bu sırada düşərgənin ən böyük birliklərindən sayılan SİDSUH, Demokratik Konqres, MKM, "Bizim Azərbaycan" və "Azadlıq" bloklarının adlarını çəkə bilərik. 2013-cü ildə yaradılan Milli Şura AXCP-nin forpostu kimi hələ də formal olaraq fəaliyyət göstərsə də, onun da əvvəlki birliklərin taleyini yaşayacağı şübhəsizdir...

Müxalif birliklərin taleyi niyə belə olur?

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli bunun səbəblərindən danışıb. O, "Yeni Müsavat"a açıqlamasında dedi ki, müxalifətin özü yekcins olmadığı üçün yaradılan bloklar da yekcins olmur:** "Düzdür, müəyyən məqamlarda müxalifət bir araya gələ bilər. Bu da konkret məsələlərlə bağlı olur. Azərbaycan Xalq Hərəkatı da belə oldu. Onları birləşdirən ümumi məsələ hazırkı hakimiyyətə müxalif olmalarıdır. Qalan digər məsələlərdə bir-birindən fərqlənirlər, ideoloji baxımdan da bu belədir. Digər tərəfdən, müxalifət liderləri, demokratik düşərgənin liderləri sayılanlar, yaxud da özlərini lider sayanların arasında istər-istəməz daxili rəqabət var. Bu daxili rəqabət də çəkişməyə, qarşıdurmaya, bir-birilərini qəbul etməməyə gətirib çıxarır. Yaşlılarla gənclər arasındakı rəqabət son dövrlərdə ortaya atılmış bir məsələdir. Hesab etmirəm ki, bu, yaşlı-gənc problemidir. Azərbaycanda müxalifət liderlərinin əksəriyyəti 50-60 yaşını keçmiş şəxslərdir. Müəyyən zamanlarda Tural Abbaslı, Əhəd Məmmədli, Ağasif Şakiroğlu kimi gənc siyasətçilər meydana gəlib. Ola bilsin ki, bu gənclər yaşlı hesab etdikləri şəxslərin fikirlərini qəbul etmək istəmirlər. Amma belə irad bildirmək ki, sizlər 26 ildə heç nə etmədiniz, çəkilin kənara biz edək, bunlar, sadəcə, bir bəhanədir. Etiraf edirəm ki, müxalifət daxilində bir-birini qəbul etməmə halları çoxdur. Azərbaycan Xalq Hərəkatı yarandığı ilk günlərdə böyük bir müxalif kəsimi öz ətrafına toplaya bildi. Amma daxili çəkişmələr ilk günlərdən özünü büruzə verməyə başladı. Bu hərəkatın təsisçilərindən biri hesab olunsam da, idarə heyətinin üzvlüyünə düşmədim. Bunu özüm istəmədim".



**Q.Əlibəyli müxalif birliklərin bu cür talelər yaşamalarında hakimiyyətdən daha çox, onların özünü günahkar bilir:** "İstənilən hakimiyyət istəməz ki, ona qarşı güclü müxalif birlik yaransın. Bu baxımdan hakimiyyət müəyyən işlər görürsə, bunu öncəliklə özünü qorumaq üçün edir. Müəyyən zamanlarda əksər müxalif birliklərdə iştirak etmişəm. Bildiyim qədəri ilə müxalifət özü-özünü dağıdır. Əvvəl yaradır, sonra bitirir. Ola bilsin ki, burada hakimiyyətin müəyyən qədər rolu var. Hakimiyyət dəyişikliyi bir qədər fərqlidir. Təbii ki, müxalifətin bir olmaması, bu cür birliklərin uzun müddət davam edə bilməməsi müxalifətin şanslarını aşağı salır. Amma hakimiyyətə gəlmə məsələsi daha çox seçki ilə bağlıdır. Azərbaycandakı seçki sistemində isə çoxlu sayda problemlər var. Əksər seçkilərin nəticələri digər siyasi qüvvələr tərəfindən qəbul olunmur. Müxalifətin bu şəkildə dağınıq olması, bir araya gələ bilməməsi, daxili çəkişmələrə getməsi şübhəsiz ki, hakimiyyəti gücləndirən amillərdir. Əslində mövcud durumdan çıxış yolları axtarılır. Uzunmüddətli olmasa da, birliklərin yaradılması çıxış yolları axtarmaq zərurətindən irəli gəlir. Sadəcə, görünür, başqa bir effektli yol tapa bilmirik".

**Müsahibimiz mövcud durumdan çıxış yollarını tükənmiş hesab etmir:** "Etiraf etmək lazımdır ki, ayrı-ayrılıqda hər bir müxalifət qurumu zəifdir. Fikrimcə, indiki vaxtda heç bir müxalif təşkilatın təkbaşına hakimiyyətə gəlmək şansı yoxdur. Ona görə də sabit birliklərin yaradılmasına və uzunmüddətli fəaliyyət göstərməsinə böyük ehtiyac var. Qarşılıqlı razılıq əsasında intriqalara son qoyulmalı, hakimiyyətə gəlmək üçün daha uzunmüddətli "Yol Xəritəsi" hazırlanmalıdır. Bu cür proqramların hazırlanması mənə elə gəlir ki, çıxış yollarından biri ola bilər".

**Q.Əlibəyli nə zamansa sabit bir birliyin yaradılmasının mümkün olub-olmayacağına dair sualımıza belə cavab verdi:** "İndiki ənənəvi müxalifət hesab etdiyiniz qüvvələr hələ uzun müddət bu düşərgədə qalacaqlar. Belə bir şəraitdə isə böyük bir birliyin yaradılması sual altındadır. Amma hər halda, yenə də cəhd etmək olar. Yoxdansa, nəyinsə olmağı daha yaxşıdır. Bunun üçün də bir araya gəlməyə, məsələləri müzakirə etməyə hər zaman ehtiyac var. Bu baxımdan müxalifətin bir araya gəlməsi mümkündür. Daxili çəkişmələrdən azad olunmasa, bundan sonra hər hansı bir birliyin uzunmüddətli olacağını demək çətindir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# YAP-ın dialoq təklifinə reaksiyalar

## İqbal Ağazadə: "Aydın Mirzəzadənin dialoq çağırışı predmetsizdir"

## Tural Abbaslı: "YAP-a dialoq üçün müraciət etmək fikrimiz yoxdur, çünki..."

**Əvvəllər Azərbaycan siyasi meydanında iqtidar-müxalifət dialoquna tez-tez şahidlik edirdik. Amma son illərdə bu cür dialoqlar aparılmır. İqtidar və müxalifət nümayəndələri arasında bu fikir mübadilələrinə sanki maraq azalıb. Hakim Yeni Azərbaycan Partiyasının şöbə müdiri, deputat Aydın Mirzəzadə isə təmsil etdiyi partiyanın belə dialoqlara hazır olduğunu deyib. O, Modern.az-a açıqlamasında qeyd edib ki, müxalifət tərəfindən hər hansı məsələnin müzakirəsi ilə bağlı təkliflər edilsə, bu, nəzərdən keçiriləcək: "Dialoq ümumilikdə götürdükdə mühit deməkdir. Tərəflərin öz mövqeyini bildirməsi, qanun və sivillik çərçivəsində polemikaya gedilməsi, öz arqumentlərini irəli sürməklə söhbət aparılmasıdır. Hesab edirəm ki, bu məsələdə problem yoxdur. Sosial şəbəkələrdə fərqli fikirlərin yayılmasını, iqtidar-müxalifət polemikasını görürük. Birbaşa dialoq səviyyəsində görüş məsələsinə gəldikdə isə Yeni Azərbaycan Partiyası hər zaman görüşlərə, diaqloqlara hazırdır. Bu münasibətə qapıları həmişə açıqdır. Müxalifət tərəfindən görüşlə, hər hansı məsələnin müzakirəsi ilə bağlı təkliflər olarsa, bu, nəzərdən keçiriləcək. Üzv olduğum partiya hər zaman Azərbaycanda demokratiyanın olmasına çalışır, müxtəlif fikirlərin səsləndirilməsinə hörmətlə yanaşır".**





Müxalifətin YAP rəsmisinin dialoqla bağlı dediklərinə müxalifət düşərgəsindən reaksiya verilib.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"a bildirdi ki, dialoq çağırışı yaxşı çağırışdır və hər zaman da bütün cəmiyyətlərin buna böyük ehtiyacı var. İstər o cəmiyyətlər yüksək səviyyədə inkişaf etmiş cəmiyyətlər olsun və yaxud da inkişaf səviyyəsi aşağı olsun. Lakin Aydın Mirzəzadənin dialoq çağırışı predmetsiz çağırışdır: "Aydın Mirzəzadəyə şəxsiyyət, millət vəkili kimi hörmətim var. Ancaq dialoq Aydın Mirzəzadənin bir açıqlaması ilə baş tutan deyil. Səlahiyyət nötqeyi-nəzərindən onun mövqeyi bu məsələdə həlledici deyil. Siyasi partiyalarla münasibətlər sistemini düzəltməyə onun yetkisi yoxdur. Bu yetki hakimiyyətdədir. Odur ki, deklorativ çağırışları yığışdırmaq lazımdır. YAP yox, hakimiyyət dialoq istəyirmi? Hakimiyyət yüksək səviyyədə buna razıdırmı? Bu aydın olarsa, müvafiq də cavab verərik".

**VİP sədri Əli Əliyev isə dedi ki, dialoq çağırışının hakim partiyanın real dialoq istəyindən irəli gəldiyinə inanmır:** "İqtidar partiyasının müxalifətlə təmasdan, mükalimədən "qaçdığının" bariz nümunəsi elə sizin qəzetin başlatdığı canlı debat layihəsindən aydın şəkildə görünür. İzləyirsinizsə, oraya YAP-çılar tək gəlməyə üstünlük verirlər, elə Aydın Mirzəzadənin özü də. Onlar daha çox ütülənmiş süni müxalifətçilərlə kontaktlara üstünlük verirlər.

Aydın Mirzəzadənin analitik şöbəsinə rəhbərlik etdiyi siyasi təşkilatın son dialoq təşəbbüsü 2014-2015-ci illərdə baş tutmuşdu. Parlament seçkiləri və Avropa Oyunları ərəfəsində keçirilən bu tədbirlərdə real nəticə əldə edilmədi və birtərəfli qaydada hakimiyyət tərəfindən dayandırıldı. Sonradan belə bəlli oldu ki, bu təmas iqtidara elə Avropa oyunlarına Qərb siyasi liderlərini cəlb etmək üçün imiş.

Göstərdiyim misallar bir daha sübut edir ki, YAP müxalifətlə təmaslarda maraqlı deyil, yalnız öz maraqlarını təmin etmək üçün yararlanır. Əslində normal dövlət quruluşunda bu qəbildən olan cəmiyyət üçün şəffaf əlaqələr zəruridir. Torpağı işğalda olan, ətraf dövlətlər tərəfindən hədəfdə saxlanılan, təbii qaynaqlarına bütün dünyanın göz dikdiyi ölkədə iqtidar-müxalifət münasibətlərinin bu şəkildə olması cinayətdir".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, YAP yetkililəri hər zaman dialoqa hazır olduqlarını deyirlər. Ancaq bu fikirlər bəyanatlardan o tərəfə keçmir:** "Həmçinin nəzərə alsaq ki, Aydın müəllimin bu fikirləri iqtidar deyil, YAP adından səsləndirilib, o zaman məsələ bir qədər də aydınlaşacaq. YAP əslində formal olaraq iqtidar partiyasıdır. Digər müxalifət partiyalarını deyə bilmərəm, ancaq AĞ Partiya olaraq bizim YAP-a dialoq üçün müraciət etmək fikrimiz yoxdur, çünki belə bir görüşü nəticəsiz hesab edirik və onları iqtidar adından danışmaq üçün səlahiyyətli hesab etmirik. Ümumilikdə isə biz real iqtidar-müxalifət dialoqunun tərəfdarıyıq. Bu dialoq isə prezident başda olmaqla, hakimiyyətdə real söz sahibi olan səlahiyyətli şəxslərlə ola bilər. Dialoqun real mövzusu və nəticəsi olmalıdır deyə düşünürəm".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc da müxalifətin YAP-la deyil, Prezident Administrasiyası ilə dialoqa hazır olduğunu dedi.**

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

**Politoloq Zərdüşt Əlizadənin paralel.az-a verdiyi açıqlamalar geniş müzakirələrə səbəb olub. Politoloq köhnə müxalifəti aşağılayıb.**

# Zərdüşt Əlizadə liderləri ittiham etdi, REAL-ı yeni müxalifət adlandırdı

## Sərdar Cəlaloğlu: "Söyüşü, küçə ritorikasını siyasətə Əlizadə qardaşları gətirib"



**Sitat:** "Köhnə müxalifət nümayəndələrində siyasi mədəniyyət çox aşağı səviyyədədir. Gələcəyi görə bilmirlər, xalqa verə biləcəkləri heç nə yoxdur".

**O düşünür ki, 1988-1993-cü illər müxalifətin ən yüksək zirvəsi idi:** "Bu dövrdən indiyə qədər heç bir inkişafları olmayıb. Onsuz da o zamanlar da dövrə uyğunlaşa bilmirdilər. İndi isə tamamilə geridə qalmış addımlar atırlar. Azərbaycanın siyasi səhnəsində REAL-ın üzvlərindən, kişi və qadınlarından başqa işıqlı, savadlı, xalqa düzgün yol göstərən təşkilat görmürəm. Azərbaycan Xalq Hərəkatı adlanan təşkilatda da gərginliklər yaşanır. Onlar kimdirlər, heç adlarını da çəkmək istəmirəm. Bizim nə müsibətlərimiz, nə bəlalarımız var, onlara görə başımıza gəlib. Azərbaycan xalqına ziyan vurublar, böyük xəyanətlər ediblər".

**Z.Əlizadə bildirib ki, AXCP və REAL üzvləri arasındakı gərginliyi görəndə narahat olub:** "REAL üzvlərinə məsləhət gördüm ki, onlara bulaşmayın. AXCP, Müsavat, Xalq Hərəkatı - onlara baş qoşmaq lazım deyil. Onsuz da xalq arasında hörmətləri də yoxdur. AXCP üzvləri nüfuzlarını bir qədər yüksəltmək üçün REAL-çılarla münaqişə yaradırlar. Əslində onlar çox aşağı səviyyədə adamlardır. Xalq Cəbhəsi dövründən kənd intriqası səviyyəsində didişmələr baş verir. Əbülfəz Elçibəy, İsa Qəmbər, Pənah Hüseyn - bunlar məğlub olublar. Kimdirlər ki, onlara baş qoşulsun".

Politoloq REAL sıralarında təmsil olunmasa da, bu partiyanı dəstəklədiyini də bildirib.

**Köhnə müxalifətin nümayəndələrindən sayılan ADP sədri Sərdar Cəlaloğlu Z.Əlizadəyə sərt cavab verdi:** "Müxalifətdə olduqları vaxt Zərdüşt və Araz Əlizadə qardaşları qeyri-siyasi mədəniyyət nümayiş etdiriblər. Söyüşü, küçə ritorikasını siyasətə onlar gətiriblər. Onlar ancaq Azərbaycan dövlətinin və müstəqilliyin əleyhinə aktiv fəaliyyət göstəriblər. Ölkəmizin suverenliyi, müstəqilliyi, demokratiya yolunda heç bir xidmətləri olmayıb. Əgər Zərdüşt Əlizadə hesab edirsə ki, indiyə qədər ən güclü müxalifət Əbülfəz Elçibəyə qarşı olan müxalifət olub, o zaman sual olunur: Elçibəy hakimiyyətdən gedəndən sonra həmin güclü müxalifət necə oldu? O vaxt müxalifətdə Araz Əlizadənin sosial demokratları, Yeni Azərbaycan Partiyası və AMİP idi. Onun deməyindən belə çıxır ki, Azərbaycanda siyasi mədəniyyət nümayiş etdirən bu qüvvələr olub. Bu qüvvələrlə bağlı hər şey məlumdur. Zərdüşt Əlizadə çox qərəzli adamdır. Müstəqilliyimizə, xalq hərəkatına və demokratik milli qüvvələrə qarşı olub. Milli düşüncədən çox-çox uzaq, milli dəyərlərə yad, başqasının gözü ilə Azərbaycana baxan bir şəxsdir. Onun üçün dəyərlər yoxdur. Xalqın dəstəklədiyi qüvvələr siyasi mədəniyyət nümayiş etdirənlərdir. Əgər o, bu qüvvələrin siyasi mədəniyyətini aşağı hesab edirsə, onda belə çıxır ki, xalq haqqında da o fikri deyir. Əslində onun dediklərinə cavab verməyimizin mənası yoxdur. O, ciddi bir fiqur da deyil. REAL-la bağlı dediklərinə gəlincə, sosial demokratların Azərbaycanla bağlı apardıqları siyasətlə REAL-çıların siyasəti arasında heç bir fərq yoxdur. Sadəcə, ad, maska dəyişilib. Dövlətçiliyə, milli dəyərlərə münasibət hər iki qüvvədə eyni olub. Biri Rusiyaya bağlıdırsa, digəri öz aləmində Amerikaya bağlıdır. Bunlar da antimilli fəaliyyətlərdir. Dövlət, cəmiyyət üçün heç bir yaxşı şey vəd etmir. Bunların bir-birini dəstəkləmələri təbiidir. Hər iki qüvvəni bir araya gətirən bir məsələ var, o da milli mənafelərə zidd mövqedə durmalarıdır. Kor günəşi görmürsə, o demək deyil ki, günəş yoxdur. Bunun problemi Zərdüşt Əlizadənin görmə qabiliyyətindədir. Əvvəla, REAL-ın kişi və qadın deyilən tanınmış üzvlərini görmürəm. Hər halda, mən də bu siyasətin içərisindəyəm. Kimi deyir o zaman? Natiq Cəfərli, Erkin Qədirli və 1-2 nəfər tanınan REAL-çı Azərbaycan siyasi həyatında yetişib, formalaşıb və sonra da REAL-da birləşiblər. Zərdüşt Əlizadədə milli duyğular olmadığı üçün reallıqları görə bilməz. O, nə ekspert, nə də millətin ciddiyə aldığı fiqurdur. Onun sözlərini eşidəndə adam infarkt ola bilər. Açığı, mənasız fikirlərə münasibət bildirməyin özü də mənasız bir işdir. O, REAL-ı müxalifət görürsə görsün. Görmə qabiliyyətinə görə kimisə qınaya bilmərik. Zərdüşt Əlizadəni nə ekspert, nə də siyasətçi kimi görürəm. Sözlərinin heç biri səmimi deyil. Çünki ən qərəzli, siyasi mədəniyyət bir yana, ümumiyyətlə, siyasətdən uzaq bir adamdır. Onun heç özü bilmir ki, siyasət nə olan şeydir. Ona görə də boş-boş danışır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İşdən çıxarılan məktəb direktoru ev dustağı edildi - məhkəmə qərarı

**Xəbər verdiyimiz kimi, 162 saylı orta məktəbdə intihar edən 8-ci sinif şagirdi Elina Hacıyevanın ölümü ilə bağlı məktəbin direktoru Sevin Abbasova cinayət məsuliyyətinə cəlb edilib.**


Sevin Abbasova

Səbayel Rayon Məhkəməsində hakim Anar Tanrıverdiyevin sədrliyi ilə keçmiş direktorun məhkəmə prosesi baş tutub.

Femida.az-ın məlumatına görə, keçmiş direktor barəsində ev dustaqlığı qərarı qəbul edilib.

Xatırladaq ki, Təhsil Nazirliyi aprelin 8-də də məktəb direktoru haqda məlumat yaymışdı.

Məlumatda bildirilirdi ki, orta məktəbdə baş vermiş hadisə ilə bağlı açılmış cinayət işi üzrə istintaq və Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən aparılan xidməti araşdırma ilə əlaqədar yaranmış zərurəti nəzərə alaraq, hər iki istiqamət üzrə araşdırmanın tam obyektivliyini təmin etmək məqsədilə təhsil nazirinin 8 aprel 2019-cu il tarixli, K-388 saylı əmri ilə Abbasova Sevin Kamil qızı araşdırma müddətində işdən kənarlaşdırılıb.

Məktəbin direktoru vəzifəsinin müvəqqəti icrası Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsil sektorunun aparıcı məsləhətçisi İsgəndərov Əfqan Kərəm oğluna həvalə edilib.

Bildirək ki, Elina Hacıyeva təhsil aldığı məktəbdə intihar edib. Bir neçə gündür bu hadisə ölkə gündəmində böyük rezonans doğurub.

# İdolu Eskobar olan narkotacir



Samir SARI

**Bizdə bir sosial-psixoloji mərəz də var - təqlidçilik. Özümüzə uzaq ellərdən bir etalon, kumir, idol seçər, ona pərəstiş edər, bənzəməyə çalışarıq.**

Məsələn, biz uşaq olanda idolumuz Pele idi. Yay-da-yazda qızmar günəşin altında 3-4 saat futbol oynamaqdan qaralıb kösövə dönmüş, dəri rəngi baxımından idolumuza yaxınlaşmışdıq. Futbol köynəyimizin kürəyinə onun formasının nömrəsini, bəzən də adını yazırdıq (yeri gəlmişkən, dünən bəzi saytlar Peleni "öldürmüşdülər", amma yaxşı ki, bu dizinformasiya (mən diz üstə yazılan saxta informasiyalara belə ad qoymuşam) təsdiqlənmədi).

Sonra Maradona çıxdı, Pelenin krallığının yarısını əlindən aldı. Onu da bizdən sonrakı nəsillər özünə kumir seçdi. Sadəcə, Diyeqonun narkomanlığı ümummilli kumir olmasını əngəlləyirdi.

Bu saat axtarsaq, məlum olacaq ki, gənc və yeniyetmə futbolsevərlərimizin də idolu Messi və Ronaldodur. Düzdür, arada bir haçalanma var, amma çoxları məhz (yarı-yarıya bölünərək) onlara bənzəmək, onlar kimi oynamaq, onlar qədər qazanmaq istəyir. Amma necə deyərlər, xəyallar "Barsa", reallıq - "Zirə".

Yazıçılarımızın da öz kumiri var - Markes, Kafka, Prust, Murakami, Pamuk və başqaları (bu, bir az zövq, bir az da ədəbi ambisiya, lap dəqiq desək, höcətlik məsələsidir, bir yazıçı o birinin kumirinə, pis çıxmasın, tamah salmaz - az qala hər yazıçının öz idolu var).

Düzdür, bəzi müğənnilərimiz Rihanna, Beyons, Ledi Qaqa kimi dünya ulduzlarını bəyənmir, hətta "biz bu paltarı onlardan qabaq geyinmişik" kimi cümlələr qururlar, amma hiss edirsən ki, onların da bu xüsusda öz dünyaca məşhur kumirləri var - gizli-gizli pərəstiş edirlər.

Bir dənə kriminal sektorumuzdakı fəalların öz idolları barədə açıqlama verməlləri qalmışdı, şükür ki, o da oldu. Srağagün yaxalanan və üstünə "narkobaron" adı qoyulan narkotik maddə alverçisinin kumirinin məşhur kolumbiyalı qanqster, narkobaron Pablo Eskobar olduğu ortaya çıxdı.

Yəqin ki, bu ölkədə əlinə "Kazbek" götürən istənilən adam, eləcə də qəzet-kitab oxuyan hər kəs Eskobarı tanıyır. Adam sağlığında dünya şöhrəti qazanmışdı, indi də əfsanəyə çevrilib. Hətta dünya şöhrətli yazıçı Qabriel Qarsia Markes də romanlarından birində ("Qaçırılmışlar") öz şöhrətli eloğlusundan bəhs edib.

Söz yox, Eskobar gerçəkdən narkobaron olub, adam təkcə ABŞ-a təyyarələrlə, gəmilərlə tonlarla heroin, kokain göndərib, tonlarla dollar əldə edib, əlinin altında minlərlə silahlı döyüşçü olub. Zamanında o, hökumətlərlə hökumətlik edib, hətta bir ara tutub türməyə salıblar, türmənin faktiki rəisi özü olub, bezəndə təzədən qaçıb, axırda isə anası ilə telefonda iki dəqiqə artıq danışdığına görə yeri təsbit edilib və vurulub.

Bizdə isə cibində şəxsi istehlak miqdarından 3-4 "baş" artıq şey çıxan adama "narkobaron" deyirlər. Türmədə bu cür "yetim-yesir narkobaronlar" çoxdur. Onlar bu adları ilə qürur duya bilərlər, amma "quru bəylik" kimi, bu da quru narkobaronluqdur. Adama deyərlər, narkobaronsansa, hanı sənin şəxsi təyyarən, şəxsi gəmin, silahlı batalyonların, milyardların və s.

Görünür, özünə "Eskobar" ləqəbi götürən və sinəsinə iri hərflərlə "Pablo Eskobar" döyməsi həkk etdirən həmvətənimizin də belə bir arzusu olub ki, gün gəlsin, o da inkişaf edib Eskobar kimi şan-şöhrətli və qüdrətli narkobarona çevrilsin. Amma necə deyərlər, bu da qismət işidir. Xəyallar Medelin, reallıq - Kürdəxanı...

Nə edəsən, bu sevgidir... İnsanlar kumirsiz yaşaya bilmir. Sadəcə, idolun əldə etdiyi nailiyyətləri qazanmaq, onu təkrarlamaq mümkün deyil. Bu ölkədə kosmonavt olmaq istəyən yeniyetmələrin 99 faizi nəinki kosmonavt və ya təyyarə pilotu ola bilmədilər, əksəriyyəti heç sərnişin kimi təyyarəyə də minə bilmədilər.

İndi xətaili "Eskobar" da qol qoyduğu xətalı əməllərə görə gedib türmədə yatacaq, bəlkə o da kolumbiyalı idolu kimi türmədən qaçmaq istəyəcək, amma yəqin ki, bu da xəyal olaraq qalacaq. Çünki bu işdə çox çətindir. Türmədən qaçanları keçən il gördük, üç aydan sonra ili olacaq.



# Söyüş kanalı

Zamin HACI
zaminhaci@gmail.com

"Dünya işi əql ilə deyil, talei-meymun
Çəkmiş nə yerə gör səni, meymun köpək oğlu!"
*(Qasım bəy Zakir)*

**Müdriklərdən biri deyib ki, ilk dəfə əlindəki daşı yerə atıb söyüş söyən adam mədəniyyətin banisidir. Bu baxımdan, son çağlar efir məkanımızda, ya da idiot aparıcılar demişkən, "efirlərdə" söyüşün birinin bir qəpiyə olmasını alqışlayıram. Mədəniyyətimiz artır, bəs necə. Şəxsən mən heç narahat deyiləm, çünki evimizdə televizor neçə ildir işləmir (bunu fəxrlə yazmıram və telekanalizasiyalarımıza baxmadıqca milli mentalitetimizdən nə qədər uzaqlaşdığımı, manqurtlaşdığımı günbəgün hiss edirəm). Millət baxırsa, həzz alırsa, qoy davam eləsin, bundan kimə nə? Axı həmin söyüş söyən vulqar manısları neçə min manat xərcləyib toylarına çağıran elə bu millətdir. Ətlə dırnağın arasına girən iylənib çıxar. Ümid edirəm Nuşirəvan müəllim dərs alacaqdır. Yoxsa onun taleyini pis görürəm.**

Mədəni sferamızda artımlar Parisdəki məşhur kilsənin yanmasından sonrakı şərhlərdə də özünü büruzə vermişdir. Deyir tanınmış hüquqşünas ekspertlərdən biri kilsənin yanmasına heyfsilənənlərə tənqidi yanaşıbdır. Bildirib ki, o, bir daş binadır, insanlar tarixi abidələrə gərək çox məhəbbətlə yanaşmasın, vaxt gələcək dünyada bunların heç biri qalmayacaq və sairə. Tanış gəldimi? Mənə çox tanış gəldi. İŞİD təfəkkürüdür. Həmin yaramaz terrorçular Suriya və İraq ərazisindəki qədim Şumer-Babil abidələrini elə bu ağılla, yanaşma ilə partladıb, göyə sovurmuşdular. Taliban Əfqanıstanın şimalındakı qədim və nəhəng Budda heykəllərini bu axmaq fikirlə partladıb dağıtmışdı. Bizdə isə, gördüyünüz kimi, əximiz (yəni qardaşımız) bu qanacaqla qəzet-məzetlərin və telekanalizasiyaların eksperti sifətində çıxış edir, millətə hüquqi dərslər keçir. Halal olsun. Güman edirəm buna tezliklə o tərəfdə huridən-qılmandan bir şey nəsib olar.

Prinsipcə, Parisdə kilsənin yanmasına sevinmək dövlət siyasətimizə də ziddir. Axı biz oralarda xeyli tarixi obyekti neft pullarımız hesabına təmir eləmişik: Strasburq kilsəsinin mozaik pəncərələri, Versal sarayının fasadı, nə bilim, Eyfel qülləsinin başındakı "Burada sabirabadlı Natiq olub" yazısının rənglənməsi və sairə. İndi "Notr-Dam" kilsəsini yanğından sonra düzəltmək üçün mütləq bizim yardıma ehtiyac yaranmışdır. Üstəlik, bizim hökumət yanğınların nəticələrini aradan qaldırmaq sahəsində son illərdə böyük təcrübə yığmışdır. Nizami rayonunda yanan "Diqlas" Ticarət Mərkəzi miqyasına görə o kilsədən heç də geri qalmırdı. (Bu müqayisəni vəhhabi-hüquqşünasımıza milli dəstək üçün yazdım. Heç kəsi tək qoymağa ixtiyarımız yoxdur. Bəlkə getdi intihar elədi?) Ancaq fransızlar bilmirəm nəyə görə tələsdilər, artıq dünən remont üçün 600 milyon dollar yığmışdılar. Bizi gözləməli idilər.

Qayıdaq manıslarımızın söyüşləri temasına. Hesab edirəm ki, bizdə ayrıca "Mədəniyyət" kanalı varsa, bir dənə də "Söyüşmə" kanalı açmalıyıq. Qoy hər kəs orada rahatca söysün-batırsın. Yoxsa söyüş də söz azadlığının bir tərkib hissəsidir və ona qadağalar qoyanda mənfi nəticələr doğurur.

Hərçənd yadımıza gəlir, bir aralar iqtidarın icra başçıları da maraqlı söyüşləri, təhqirləri ilə milləti narahat eləmişdilər. Yuxarıda oturanlar bundan dərhal nəticə çıxartdılar, indi demək olar söyüşcül başçılara nadir hallarda rast gəlinir, hətta "Qırmızı kitaba" düşmək üzrədirlər. Biz indi elə icra başçısı görürük ki, dükanı yanan satıcı ilə "qadan alım, başına dönüm"lə danışır! Fantastik irəliləyişdir. Bilmirsən icra başçısıdır, yoxsa ziyalı, müəllim, nə bilim, xalq artistidir. Məncə, manıslar o başçılardan dərs almalı, öz üzərlərində işləməlidirlər.



# Avropa İttifaqı ilə saziş mayda imzalanmayacaq - rəsmi

## Ekspert: "Bu proses ətrafında ciddi manipulyasiyalar başlayıb"

**Aprelin 23-də Avropa Komissiyasının ticarət nümayəndəsi Petros Sormelisin başçılıq etdiyi Avropa İttifaqının nümayəndə heyəti Azərbaycana gələcək.**

Bu barədə "Report"a Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi rəhbərinin müavini Denis Danilidis deyib.

O, səfər çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişə dair danışıqların növbəti mərhələsi çərçivəsində ticarətlə bağlı məsələlərin müzakirə olunacağını diqqətə çatdırıb.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin mətni üzərində gərgin iş gedir: "Azərbaycanla yeni saziş üzərində çalışmaların 90 faizindən çoxunun tamamlandığını deyə bilərəm. Ötən həftə hər gün danışıqların mərhələləri keçirilirdi. Məqsədimiz bu işi mümkün qədər tez başa çatdırmaqdır. Danışıqları davam etdirmək üçün Azərbaycana daha bir nümayəndə heyətinin səfər edəcəyi gözlənilir. Mayın 13-14-də isə Brüsseldə Şərq Tərəfdaşlığı çərçivəsində 10 illik əməkdaşlığın nəticələri və gələcəyi müzakirə ediləcək. Bu sammitdə də Avropa İttifaqı və Azərbaycan arasında yüksək səviyyəli danışıqların baş tutması nəzərdə tutulur".

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbərinin açıqlamasından bu nəticəyə gəlmək olar ki, Azərbaycanla tərəfdaşlıq sazişi may ayında imzalanmayacaq.

Xatırladaq ki, sazişin may ayında imzalanmasının gözlənilmədiyi, imzalamanın böyük ehtimalla payızda baş tutacağı barədə hələ iki ay öncə "Yeni Müsavat" qəzeti yazmışdı. Beynəlxalq hüquq və münasibətlər üzrə ekspert Yeganə Hacıyeva bu barədə qəzetimizə şərhində bildirmişdi. Beləliklə, əminliklə söyləmək olar ki, yazdıqlarımız tamamilə təsdiqini tapır.

**Yeganə Hacıyeva** "Yeni Müsavat"a şərhində bildirdi ki, Aİ-Azərbaycan münasibətləri tərəflərin razılaşdırdıqları proqram üzrə davam edir və yekunlaşmaq üzrədir. May ayında sazişin imzalanması üçün yekun sənədin razılaşdırılması haqqında bir sənədin imzalanması mümkündür. Yəni sənədin əksər bəndləri razılaşdırıldığ, lakin bir neçə strateji bəndlər isə hələ qaldığından qarşılıqlı təkliflərin üzərində işlər gedir. Böyük ehtimalla imzalanması nəzərdə tutulan tərəfdaşlıq sazişi bu ilin payızında imzalanacaq. May ayı üçün isə ümumi razılaşdırılmış məqamların bir daha gözdən keçirilməsi, komitələrin işinin yekunlaşdırılması razılaşdırılmış məqamlar üzrə protokolların tərtibi prosedurları yekunlaşacaq: "Yekun sazişin isə dediyim kimi, may ayında imzalanması gözlənilmir. Yekun saziş payızda imzalanacaq. İş davam edir və çox önəmli mərhələdədir. Proqram üzrə gündəlikdən sapmalar müşahidə olunmur. Bununla belə, son zamanlar Azərbaycanla Avropa İttifaqı arasında bağlanacaq Tərəfdaşlıq Sazişi ilə bağlı müxtəlif fikirlər səslənməkdədir. Xüsusilə erməni mediası və siyasi dairələri belə rəy formalaşdırmağa çalışırlar ki, guya Azərbaycan sözügedən sazişin imzalanmasında maraqlı deyil, bilərəkdən bu prosesi yubadır. Bu proses ətrafında ciddi manipulyasiyalar başlayıb".

**Ekspert onu da dedi ki, Azərbaycana qarşı Avropa Şurasında, Avropa Parlamentində və digər təşkilatlarda aparılan kampaniyaların heç birinin bu proqrama təsiri olmadı:** "Bütün səylərə, maneələrə baxmayaraq bu proses davam edir. Əsas müzakirə olunan strateji məsələlərə təhlükəsizlik və ticarət əlaqələridir. Artıq yekun mərhələdəyik".

**Politoloq Elşən Mustafayev "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın Avropa İttifaqı ilə saziiş imzalanması ilə bağlı danışıqlar 2016-cı ildə Brüsseldən başlayıb və bu günə qədər davam edir. Prosesin bu qədər uzanmasının səbəbləri çox güman ki, sənəddə nəzərdə tutulan bəzi bəndlərlə bağlı tərəflər arasında razılığın əldə olunmamasından irəli gəlir:** "Məsələ ondadır ki, indiyə qədər aparılan danışıqların gedişatı ictimayyətə hər zaman bağlı olub və bu da sənədin hansı səbəblər üzündən yubanmasını detallı araşdırmağa mane olur. Ölkə daxilində hökumətin özünün razılaşmadığı bir çox sahələr də var ki, bu günə kimi sazişin uzanması səbəbi kimi göstərmək olar. Məsələn, insan haqları, siyasi islahatlar, media, mətbuat azadlığı məsələsində tərəflər fərqli düşünürlər. Bu gün hökumət tərəfindən bu istiqamətdə atılan addımların Avropa İttifaqını qane edib-etməməsi böyük sual altındadır. Aİ nümayəndələri söhbətlərdə deyirlər ki, Azərbaycanın siyasi məsələlərdə maksimum razılaşması arzulanır. Çünki Azərbaycan Dünya Ticarət Təşkilatının (WTO) üzvü olmadığından iqisadi əməkdaşlıqda problemlər yarana bilər və Aİ bu məsələdə güzəştlərə getməklə bağlı yollar axtarır, çox güman ki, nəticə ədə edəcək. Bu olacağı təqdirdə Azərbaycan iqtisadi sahədə daha çox qazanc əldə edə bilər. İndiyə qədər sənədi imzalamış digər dövlətlər WTO üzvüdür. Bütün bunlara rəğmən demək istəyirəm ki, sənədin imzalanması ilk növbədə tərəflərin hər ikisinin şərtlərlə bağlı edəcəyi güzəştlərdən asılı olacaq".

❑ **Etìbar SEYÌDAĞA,**
**"Yenì Müsavat"**



# Jirinovski Rusiyanı Avropa Şurasından çıxmağa çağırdı

**Rusiya heç bir şərtlə Avropa Şurası Parlament Assambleyasına qayıtmamalıdır, yayda bu təşkilatdan çıxmaq lazımdır. Axar.az xəbər verir ki, bu sözləri Rusiya Liberal Demokratik Partiyasının sədri Vladimir Jirinovski deyib.**

"Heç bir şəkildə AŞ PA-ya qayıtmalı deyilik. Onlar bizi təhqir ediblər. Ona görə də Liberal Demokratik Partiyasının mövqeyi belədir - AŞ-dən çıxmaq və bu təşkilatı unutmaq. Bu təşkilat tamamilə lazımsızdır. Hətta mənzil qərargahının yerləşdiyi Strasburqda belə heç kim təşkilat barədə bir şey bilmir", - Jirinovski bildirib.

Onun fikrincə, AŞ PA-nın Rusiyaya olan marağı yalnız illik 30 milyon avro həcmindəki üzvlük haqqının ödənməsindən ibarətdir.

Qeyd edək ki, Moskvanın təşkilatla münasibətləri 2014-2015-ci illərdə pisləşib. Krımla bağlı məsələdə baş verən fikir ayrılıqları Rusiya nümayəndə heyətinin bir sıra hüquqlarından məhrum olması ilə nəticələnib. Bundan sonra Rusiya təşkilatın iclaslarında iştirakı dayandırıb.



# Moskva görüşünün pərdəarxası: indi də "Medvedyev planı"...

## Azərbaycan XİN başçısının "2016-cı ildə Rusiya tərəfindən təqdim olunan plan əsasında müzakirə apardıq", - sözləri nədən xəbər verir?; Rusiya baş nazirinin təklifləri yenidən dövriyyəyə çıxır; **məlumatlı mənbə:** "Rusiya Qarabağla bağlı prosesi yenidən nəzarətə aldı"

**Aprelin 15-də Rusiyanın təşəbbüsü, həmsədrlərin və ATƏT sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Moskvada keçirilən Qarabağ danışıqlarında bir sıra anlaşmalar əldə olunduğu rəsmən bəyan edildi. Bununla bağlı həmsədrlərin bəyanatında detallı məlumat verilməsə də, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mətbuata açıqlamasında bir sıra məqamlara aydınlıq gətirdi, razılaşmalardan bəhs etdi.**

Diqqətçəkən budur ki, Azərbaycan XİN-in başçısı ermənistanlı həmkarı ilə keçirdiyi budəfəki görüşü müsbət qiymətləndirib, danışıqların faydalı və substantiv keçdiyini bildirib. Nazir qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçirdilər. "Çox faydalı görüş oldu. İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq", - deyə nazir bildirib. E.Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: "İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu, həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".

**Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, İrəvana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub:** "Bu, çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər İrəvana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".

Jurnalistlərin qarşılıqlı səfərləri barədə anlaşma birmənalı qarşılanmasa da, kənd təsərrüfatı işlərinin aparılmasın imkan verilməsi barədə razılaşma təqdir olunur. Azərbaycanın dinc vətəndaşları, əkin-biçin işləri ilə məşğul olan sakinlər dəfələrlə işğalçı ölkənin təxribatlarının qurbanı olublar, yaxud ciddi zərər görüblər. Ancaq bəzi ekspertlər Moskva görüşündə əldə olunan razılaşmalarla bağlı elə də yüksək fikirdə deyil.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əvvəlcədən Moskva görüşündən ciddi nəticə gözləmirdi:** "Biz başa düşürük ki, ermənipərəst qüvvələr, həmçinin Rusiya Ermənistanın qarşısındakı bəzi çətinlikləri aradan qaldırmaq, Paşinyanın səhvlərini düzəltmək üçün imitasiya prosesini yaratmaqda maraqlıdır. Bu mənada bizə bəlli olan taktikanı tətbiq edirlər. Başa düşürük ki, Ermənistanın XİN başçısının danışıqlarda mövqeyi həlledici ola bilməz. Çünki Paşinyan özü keçirdiyi görüşdən sonra bəyanat verərək dedi ki, ərazi müqabilində sülhü qəbul etməyəcək. Bu mənada biz anlayırıq ki, Moskva görüşündə ərazilərin azad olunmasına aid heç bir müzakirələr olmayıb, müzakirə oluna da bilməzdi. Sadəcə, humanitar mövzulardan danışılıb".

**T.Zülfüqarov E.Məmmədyarovun bəyanatı ilə razılaşmadığını da bildirdi:** "Mövcud durumda erməni tərəfi və havadarları danışıqlar prosesini bərpa etməyə maraqlıdır. Təbii ki, biz də danışıqlardan imtina etməməli və təbii ki, görüşlərə qatılmalıyıq. Deməli, biz Moskva görüşündə də orda iştirak etməli idik, amma görüşdən sonra belə bir görüntü yaratmamalıydıq ki, ciddi müzakirələr aparılıb. Azərbaycanın mövqeyi sadə olmalı idi. Deyilməliydi ki, danışıqlarda iştirak edirik, amma ciddi heç bir müzakirə aparılmayıb. Kim istəyirsə, danışıqlar görüntüsü yaratsın, bununla bağlı əsaslar ortaya qoysunlar. Amma bu görüntünü biz yaratmamalıyıq. Bizim girovluqda qalan vətəndaşlarımız var. Heç olmasa onları azad edəydilər. Deməli, ortada ciddi məsələlər yoxdur".

**E.Məmmədyarovun "Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Ümumiyyətlə, 2016-cı ildə Rusiya tərəfindən təqdim olunan plan əsasında müzakirə apardıq" sözlərinə gəldikdə, sabiq nazir T.Zülfüqarov bunları bildirdi:** "Ermənilər həmişə deyirlər ki, Sankt-Peterburq görüşündə atəşkəs rejiminin gücləndirilməsi və kameraların quraşdırılması müzakirə olunub. Görünür, Moskvada yenidən bu məsələ qaldırılıb. Həmsədrlər də səslənən təkliflərə qarşı çıxmayıblar. Biz əvvəlcədən bilirdik ki, nəticə olmayacaq. Amma Azərbaycan deməlidir ki, görüş oldu, lakin ciddi danışıqlar aparılmadı. İndiki durumda hücumlu taktiki addımlar atılmalı idi ki, heç olmasa, prosesdən öz xeyrimizə istifadə edək".

**Bu arada erməni mənbələri müxtəlif iddialar irəli sürməkdədirlər. "Moskvada xarici işlər nazirləri "Medvedyev planı" üzərində müzakirələr aparıblar. Publika.az xəbər verir ki, bu iddia ilə erməni şərhçi Naira Ayrumyan çıxış edib. Ayrumyan yazır ki, Rusiya "Medvedyev planı"nı canlandıracaq:** "Bu planın əsasını "Kazan düsturu" təşkil edir, lakin Moskva həm də münaqişə bölgəsində hərbi eskalasiyaya qarşıdır. 2016-cı ilin "aprel müharibəsi"ndən dərhal sonra - 7-8 aprel tarixində Rusiyanın baş naziri Dmitri Medvedyev regiona səfər etdi. Medvedev bəyan etdi ki, "İki seçim var, birinci münaqişənin dondurulmuş vəziyyətdə saxlanılması, ikinci eskalasiyaya imkan vermədən danışıqların aparılması. Mən ikincini seçərəm, nə də olsa qan tökülmür". Medvedyev həmçinin qeyd etdi ki, "Rusiya başqa regiona başqa ölkələrdən təchizatın gəlişinə qarşı Azərbaycan və Ermənistanla hərbi-texniki əməkdaşlığı davam etdirəcək". Medvedyevin həmin səfəri Ermənistanda mənfi reaksiya doğurmuşdu, xüsusilə Azərbaycanla hərbi əməkdaşlığın davamı haqqında səsləndirdiyi bəyanatlar. İstisna edilmir ki, Moskva yenə "Medvedev planı"nı işə salır və nazirlərin görüşündə bu məsələ gündəmə gəlib".

**T.Zülfüqarov isə hesab edir ki, əslində söhbət "Medvedyev planı"ndan getmir:** "Çünki o zaman Medvedyev Ermənistana səfər etmişdi və ola bilsin ki, haradasa müəyyən fikirlər səsləndirib. Lakin bu, bir plan kimi ortada olmayıb. Sadəcə, o vaxt xüsusi mexanizmlərin işlənilməsi, təmas xəttində kameraların yerləşdirilməsi, pozuntular olanda onları qeydə alıb məsuliyyət daşıyan tərəfin açıqlanmasından söhbət gedirdi. Ümumiləşdirəndə plan indiki vəziyyətin dondurulmasına yönəlmişdi. Ermənilər hesab edir ki, bu, təmas xətti deyil, "Artsax"ın sərhədləridir". Eks-nazir bir daha qeyd etdi ki, hazırda danışıqların imitasiyası prosesi gedir və Azərbaycan tərəf Ermənistanın qeyri-konstruktiv mövqeyini bəyan etməlidir.

Xəbər verildiyi kimi, nazirlərin görüşündən sonra ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə səfər edəcəyi açıqlanıb. Diplomatların saysız-hesabsız səfərlərinin bölgəyə hələ də ədalətli sülh gətirmədiyi faktdır. Ancaq belə təxminlər var ki, Rusiya ev sahibliyi etdiyi görüşün nəticələrinin effektli olmasını nümayiş etdirməkdən ötrü davamlı səfərlərə və görüşlərə təşəbbüs göstərəcək. Həmsədrlərin səfəri də Moskva görüşünün məntiqi davamı olaraq qiymətləndiriləcək. Ola bilsin, ardınca liderlərin görüşünə də təşəbbüs göstərilsin.

Moskva danışıqları ilə bağlı digər bir maraqlı ehtimal da var. Belə yanaşma var ki, Rusiya prosesi tam nəzarətdə saxlamağa çalışdığı üçün belə bir görüş keçirmək təşəbbüsü ilə çıxış edib. Adının çəkilməsini istəməyən məlumatlı mənbə Rusiya-Ermənistan münasibətləri barədə ilginc fikirlər söylədi. Onun sözlərinə görə, baş nazir Nikol Paşinyan fəaliyyəti boyu özəl taktika seçib. Belə ki, onun keçirdiyi görüşlərin əksəriyyəti təkbətək baş tutub. Bu mənada əminliklə demək olar ki, Moskva Paşinyana etibar etmir və onun görüşləri təkbətək keçirməyə üstünlük verməsi Rusiya rəhbərliyini narahat edir. Bu mənada şübhələr var ki, Rusiya onun iştirakı olmadan Ermənistanın Azərbaycanla hansısa razılığa gələ biləcəyindən ehtiyatlanır. Məhz buna görə də Rusiya Qarabağla bağlı prosesi yenidən nəzarətə aldı. Məlumatlı mənbəmiz xatırlatdı ki, Ermənistanın sabiq prezidentləri Robert Köçəryan və ya Serj Sərkisyan Qarabağ danışıqlarını aparanda Moskva keçirilən görüşlərdən indiki qədər narahat olmurdu: "Hər halda, Rusiya hakimiyyəti əmin idi ki, nə Köçəryan, nə də Sərkisyan Moskvanın çəkdiyi xətlərdən kənara çıxmayacaq, görüşdən sonra da aparılan müzakirələr barədə ona hesabat verəcək. Nikol Paşinyana isə Rusiya etibar etmir. Üstəlik, Ermənistanın baş naziri keçirilən ikitərəfli görüşlərin əsas vaxtını təkbətək keçirməyə çalışır. Ona görə də Moskva düşünür ki, amerikapərəst baş nazir Rusiyanın arxasından hansı işləri qarışdırır". Paşinyan da başa düşür ki, təkbətək danışıqlara üstünlük verməsi Rusiyanı qıcıqlandırır. Çünki Rusiya sonda "ofsayd"da qalacağından ehtiyat edir.

Rusiya Paşinyanı səhvlərinə görə cəzalandırmaqda israrlı olsa da, hələlik Qarabağ amilindən istifadə etmək istəmir. Çünki o halda Azərbaycan daha üstün mövqeyə sahiblənə bilər. Üstəlik, rəsmi Bakı Avropa İttifaqı ilə saziş imzalamaq ərəfəsindədir. Deməli, "nə hərb, nə sülh" variantı daha çox Moskvanın işinə yarayır.

E.Məmmədyarovun da açıqlamasından ortaya çıxan nəticə budur ki, "bu xəmir hələ çox su aparacaq". Sitat: "Əlbəttə, bir görüşlə biz bütün məsələləri həll edə bilmərik". Deməli, tərəfləri hələ çoxsaylı görüşlər gözləyir...

**Bu günlərdə Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko isə növbəti dəfə ölkəsinin mövqeyini bəyan edərək dedi ki, Rusiya münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərir:** "Bu münaqişənin həllinin başqa yolu yoxdur. Rusiya Dağlıq Qarabağ probleminin həlli istiqamətində səylərini azaltmayacaq". Matvyenko da dolayısı ilə "Medvedyev planı"na işarə edib.

**Xatırladaq ki, Rusiyanın baş naziri D. Medvedyev 2016-cı ilin aprel döyüşlərindən bir neçə gün sonra demişdi ki, hər kəs münaqişənin həllini, vəziyyətin dəyişməsini istəyir. Amma Medvedyev demişdi:** "Burada da bir çox siyasətçilər haqlı olaraq gələcək nəsillər qarşısında öz məsuliyyətlərini anlayırlar. Yəni ki, gələcək nəslə dondurulmuş deyil, həll olunmuş münaqişə ötürmək lazımdır. Problem odur ki, münaqişənin istənilən həlli bir tərəfi qane edəcək, digər tərəfi isə narazı salacaq. Əgər münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq, yəni onu tez bir zamanda həll etmək qərarından imtina etmək və münaqişənin həlli yolunda verilən insan itkiləri arasında seçim etməli olsam, mən yenə də ikincini seçərəm. Yaxşısı budur vəziyyət belə qalsın, amma qan tökülməsin".

Status-kvonun saxlanılması Ermənistanın da tam ürəyincədir. Çünki ermənilər ümid edir ki, zaman onların xeyrinə işləyəcək, Qarabağda böyüyən yeni nəsil geri dönüşü heç zaman qəbul etməyəcək, üstəlik, beynəlxalq aləm də işğalı "həzm" edəcək. Azərbaycan rəhbərliyi isə daim bəyan edib ki, torpaqların işğalda qalması ilə heç zaman barışmayacaq və səbri sonsuz deyil.

**Elşad PAŞASOY,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# Başqasının yerinə imtahan verməyə cəhd etmiş iki nəfər saxlanılıb

**Dövlət İmtahan Mərkəzinin (DİM) şikayəti əsasında Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.**




DİM-dən verilən məlumata görə, 2018-ci ildə keçirilən qəbul imtahanlarında imtahanda iştirak etməli olan abituriyentlərin əvəzinə başqalarının iştirakına şərait yaradan şəxslər saxlanılıblar.

Faktla bağlı Göygöl sakini Təbib Alışanlı və Gəncə sakini İbadət Novruzov cinayət məsuliyyətinə cəlb edilib. Həmin şəxslər rəsmi sənədləri saxtalaşdırmağa cəhd ediblər. Hər iki şəxs barəsində Cinayət Məcəlləsinin 308.1-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar öz və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 178.2.3-cü (dələduzluq; şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Xatırladaq ki, ötən il qeydiyyatdan keçmiş abituriyentin əvəzinə başqa bir şəxsin imtahan binasına daxil olmağa cəhd etməsi halı aşkar olunduqdan sonra DİM tərəfindən araşdırma aparılıb və nəticələr məsələyə hüquqi qiymət verilməsi üçün müvafiq orqanlara təqdim olunub.

# Masallıda yol tikintisi üçün 6,8 milyon manat ayrılıb

## “Dövlət satınalmalarının vahid internet portalı haqqında” Əsasnamə təsdiq edildi

**Prezident İlham Əliyev “Masallı rayonunun Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” sərəncam imzalayıb.**



“Report” xəbər verir ki, sərəncamla otuz səkkiz min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi məqsədilə 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Azərbaycan prezidenti İlham Əliyev “Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə  də fərman imzalayıb.

“Report” xəbər verir ki, fərmanla dövlət satınalmalarının vahid internet portalının operatoru Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müəyyən edilib.

Nazirlər Kabinetinə, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə, Azərbaycanın Xüsusi Dövlət Mühafizə Xidmətinə, Ədliyyə Nazirliyinə müvafiq tapşırıqlar verilib.

# Gənclərin intiharı ilə bağlı dəhşətli statistika - özünəqəsd “yoluxucu”durmu...

## Psixoloq: “Həyatı rəngarəng olan insan ən çətin situasiyalarda belə özünə çıxış yolu tapa biləcək”

**Ötən gün Bakının Yasamal rayonunda 20-23 yaşlı gənc qız özünü doqquzmərtəbəli binadan atıb. Hadisə yerinə təcili tibbi yardım briqadası çağırılıb. O, təcili yardımla 1 saylı Kliniki Tibbi Mərkəzə aparılarkən yolda dünyasını dəyişib. Gənc qızın hansı səbəbdən intihar etdiyi hələlik məlum deyil.**



İki gün öncə isə Sumqayıt şəhərində 22 yaşlı gənc oğlan yaşadığı evdə özünü asıb. Bu intihar hadisəsinin də səbəbləri məlum deyil. Həmin gün Bakının Binəqədi rayonu ərazisində 19 yaşlı gənc oğlanın intihar etdiyi barədə məlumat yayılmışdı. Gənc oğlan özünü yaşadığı evdə asıb.

Həmçinin aprelin 14-də Bakı bulvarında şəxsiyyəti məlum olmayan gənc şəxsin özünü Xəzər dənizinə ataraq intihar etdiyi barədə məlumat yayıldı.

Bir neçə gün öncə isə Şabranın Xırdaoymaq kəndində 3 uşaq anası olan 32 yaşlı gənc qadın özünü yaşadığı evin həyətindəki tövlədən asaraq intihar edib. Gənc qadının epilepsiya xəstəliyindən əziyyət çəkdiyi bildirilir. İlkin ehtimallara görə onun intihar səbəbi də bununla bağlı olub.

Eyni gündə İsmayıllı rayonunda da 18 yaşlı gəlin özünə qəsd edib.

Beləliklə, son bir neçə gündə gənclərin intiharları ilə bağlı dəhşətli statistika ortalığa çıxmaqdadır. Mətbuatda, cəmiyyətdə intiharların qarşısının əməli şəkildə alınması ilə bağlı müzakirələr səslənməkdədir.

Bəs “gəncləşən” və artan intiharların əsas səbəbi nədir?

Öncə bir incə məqama diqqət edək. Psixoloqlar hesab edir ki, intihar bir növ yoluxucudur. Məktəblinin dəhşətli intiharından sonra ölkədə intihar hadisələrinin sayının ifrat şəkildə artması bu suisidin “yoluxucu” olması haqda iddialarda həqiqət payının olduğunu təsdiqləyir.

Bəs intiharların sayının azaldılması istiqamətində hansı tədbirlər görülməlidir?

Xatırladaq ki, ötən ilin oktyabrında parlamentdə “Psixoloji yardım haqqında” qanun layihəsi qəbul edilib. Qeyd edək ki, bu qanun ölkədə psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını, psixoloji yardım alan şəxslərin və psixoloqların hüquqlarını və vəzifələrini müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir. Ehtimal olunurdu ki, qanun qəbul edildikdən sonra cəmiyyətdə bir sıra psixoloji problemlər öz həllini tapacaq, həmçinin qismən də olsa baş verəcək initharların qarşısı alınacaq.

**Psixoloq Ramil Nəcəfli mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb. Psixoloq qeyd edib ki, hələlik “Psixoloji xidmət haqqında” Qanun qəbul edilsə də, onun əhəmiyyəti gözə çarpmır:** “Zaman keçdikcə bu sahədə də monopoliya hökm sürəcək. Yəni bir qisim məmurlara yaxın şəxslər çalışacaq ətrafında özlərinə yaxın çevrə yaradılsın, beləliklə də tələb olunan mənafelər kənarda qalacaq. Bu işdə bir sevgi lazımdır. Kim ki, bu işlə məşğul olmaq istəyir, onlar üçün şərait yaradılmalıdır. Ən azından maneçilik edilməsin. Hətta elə insanlar var ki, onlar pulsuz olaraq psixoloji xidmət göstərmək istəyir, təki insanlara faydası, xeyri dəysin.

O ki qaldı son vaxtlar xeyli sayda gəncin intihar etməsi məsələsinə, sanki son vaxtlarda gənclər də daxilən qocalıb. Demək olar ki, artıq köhnə təfəkkürlü gənclik formalaşmağa başlayıb. Gənclər maneələri aşmaq barədə düşünmürlər, motivasiyaları yoxdur. Beləliklə, düşünmək olar ki, hazırkı gənclik zərərli hipnoz altındadır. İş yerlərinin də olmaması onlarda gələcək hədəflər barədə ümidləri qırır. Əgər 20-30 il əvvəl gənc qız və yaxud oğlan gələcək üçün nəsə planlaya bilirdisə, onlar üçün həyat qarantisi var idisə, indi gənclərdə bu hiss, motiv yoxdur. Gənclərin qarşısında hansı məsələlər durur? Evlənmək, iş qurmaq, özü üçün karyera yaratmaq, həmçinin asudə vaxtlarında əyləncəli yerlərə getmək, idmanla məşğul olmaq və sairə. Lakin sadaladıqlarım hazırda bir çox gənclərin üzünə bağlıdır. Gənclik də çarəsiz qalaraq, yalnız primitiv, qurşaqdan aşağı fikirlərlə məşğuldur. Yəni ülvi istəklər, o cümlədən evlənmək, ailə qurmaq barədə düşünə bilmədikləri, öz potensiallarını ortaya qoya, perspektivlərini görmədikləri üçün məcbur qalıb müvəqqəti münasibətlər qurmağa çalışırlar. Bu da gəncləri primitiv edir, hər mənada geridə qoyur. Beləliklə, şəxs dar çərçivəyə düşdüyündən, özünü reallaşdıra, tapa bilmədiyinə, mənasız həyat tərzi keçirdiyinə görə tez-tez depressiya halına düşür, intihara əl atır.

Bunun üçün gənclərin həyat tərzinin dinamikləşməsi, daha aktiv və maraqlı olması vacibdir. Həyatı rəngarəng olan insan ondan qopmağa çalışmayacaq. Hətta ən çətin situasiyalarda belə özünə çıxış yolu tapa biləcək".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”,**

# Azərbaycanlılarla çeçenlər arasında daha bir kütləvi dava

**Almaniyanın paytaxt Berlində azərbaycanlılarla çeçenlər arasında kütləvi dava olub.**

“Report”un Avropa bürosunun xəbərinə görə, şəhərin mərkəzi Kurfürstendamm (Kudam) küçəsində “Brasil” restoranında başlayan mübahisə sonda şəhər ətrafında əlbəyaxa dava ilə nəticələnib.

Dava nəticəsində 6-7 nəfər xəsarət alıb ki, bunlardan 4-ü azərbaycanlıdır. Polisdən yayınmaq üçün xəsarət alanlar Almaniyadan çıxarılıb.

Kütləvi davanın biznes mübahisəsi zəmnində baş verdiyi bildirilir.

# “Yasamalda da nəzir qutusunu oğurlamışam”

**ARB TV xəbər verir ki, paytaxtın Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən məsciddə axundun iş otağından oğurluq olunub.**




Zərərçəkən rayon polis idarəsinin 6-cı polis bölməsinə müraciət edərək otağın qapısının naməlum şəxs tərəfindən qırıldığını və oradan pulunun götürüldüyünü deyib.

Əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş Anar Mirzəyev saxlanılıb. O, ifadəsində törətdiyi əməli etiraf edib.

Araşdırma zamanı saxlanılan şəxsin ötən ilin sentyabr ayında Yasamal rayonunda yerləşən məscidlərdən birində nəzir qutusundan oğurluq etdiyi və bu əməlinə görə polislər tərəfindən saxlanılaraq 3 ay müddətinə inzibati qaydada həbs olunduğu da məlum olub.

**Anar Mirzəyev - saxlanılan şəxs:** “Taxta ilə qapını açıb axundun otağına girdim. Siyirmədən 1500 manat pul götürdüm. Yasamalda da nəzir qutusunu oğurlamışam. O işimə görə də 3 ay həbs olundum”.

Faktla bağlı Mirzəyev barəsində Binəqədi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# İstanbul seçkisi Türkiyə demokratiyasına zərbə oldu?

**Türkiyədə martın 31-də keçirilən bələdiyyə seçkilərindən sonra İstanbulda hansı namizədin qəlib gəldiyi hələ də məlum deyil. İlk günlərdə ana müxalifət sayılan CHP-nin namizədi Əkrəm İmamoğlunun qalib gəldiyi açıqlansa da, AKP iqtidarı qanun pozuntularının olduğu iddiası ilə nəticələri tanımır.**

Artıq bir çox yerlərdə səslər yenidən sayılıb və Ə.İmamoğlu ilə iqtidarın namizədi Binəli Yıldırım arasındakı səslərdə 14 min fərqlə CHP öndədir. Hazırda Maltəpədə səslər yenidən sayılır.

**B.Yıldırım seçkilərdən sonra ilk dəfə açıqlama verib. O deyib:** "İnsan heyrətlənir. Bu seçki murdar olmuş bir seçkidir. Murdar ətin qovurması olmaz. Birində CHP 29500 səslə qalib gəldiyini açıqladı. Həmin gecə biz də əlimizdəki məlumatlara əsasən, qalib gəldiyimizi bildirdik. Seçki bitəndən sonra anormallıqlar, şübhəli məqamlar olduğu üzə çıxdı. Hüquqi proses hələ də davam edir. İki partiyanın namizədi bir-birinə yaxın səs topladığı halda səslərin təkrar sayılmasından sonra mənim səsim nə üçün artır? İstanbul kimi şəhəri idarə edəcək bələdiyyə sədrinin şübhəli seçki nəticəsində seçilməsi yaxşı hal deyil. Etiraz etməsəydik, səs fərqi 29 min nəfərdən 12 minə düşməzdi. Özünü "fanklub"un rəhbəri kimi aparan şəxsdən bələdiyyə sədri olmaz. Sədrlik mandatını Ali Seçki Qurumu verəcək".

İstanbul uğrundakı bu savaşın Türkiyə demokratiyasına ciddi zərbə vurduğu yönündə çoxsaylı fikirlər səslənir. Bunun əksini düşünüb, səslərin sayılmasını demokratik proseslərin nəticəsi kimi düşünənlər də az deyil.





**Sabir Rüstəmxanlı:** "İstanbulda maraqlı olan qüvvələr var"
**Əhəd Məmmədli:** "Gedən proseslər Türkiyə demokratiyasını zədələyə bilər, amma..."

**VHP sədri Sabir Rüstəmxanlı gedən proseslərdən narahatlığını dilə gətirdi:** "Seçkilərdə AKP Türkiyənin iri şəhərlərinin bir çoxunu uduzdu. Ankara, İstanbul, Mersin, Antalya kimi şəhərlərdə iqtidar məğlub oldu. İzmir bəlli idi, çünki CHP daim burada güclü olub. Artıq seçilən bələdiyyə başqanlarına vəsiqələr verilib. Amma İstanbulda son nəticə məlum deyil. Binəli Yıldırıma böyük hörmətim var. Əkrəm İmamoğlunu tanımıram və bunun üçün də fəaliyyəti ilə tanış deyiləm. Binəli Yıldırım belə seçilsəydi təəccüblənməzdim. Amma reallıq budur ki, ilk elan olunan rəqəmlərə görə Əkrəm İmamoğlu seçkiləri udub. Bir sıra yerlərdə şübhələr var idi. Orada da səslər yenidən sayıldı. Amma nədənsə şəhərin bütün yerlərindəki nəticələrə şübhə yaranıb. Belə görünür ki, nəticələr ləğv olunacaq, yenidən seçkilər keçiriləcək. Bu da şübhəsiz ki, türk demokratiyasında ilk hadisə olacaq. Çünki bu seçkilər Türkiyədə seçki sisteminin nə qədər mükəmməl olduğunu və seçkilərin necə demokratik keçirildiyini göstərdi. Heç Avropa ölkələrində seçkilərə bu qədər maraq olmur, seçkilərə qatılım belə bu qədər olmur. Bələdiyyə seçkiləri yüksək səviyyədə keçirildi. Bunu sona qədər davam etdirmək lazım idi. Bir dönəm üçün AKP iqtidarının uduzması Türkiyəyə ciddi zərbə vurmazdı. Görünür, İstanbulda maraqlı olan qüvvələr var. Onlar heç cür bu şəhəri uduzmaq istəmirlər. Hesab edirəm ki, yüksək səviyyədə keçirilən seçkilərə İstanbul ləkəsi salırlar. Bu olmasa daha yaxşı olardı".

**Politoloq Əhəd Məmmədli yenidən seçkilərin ən doğru yol olduğunu düşünür:** "İstanbulda səslərin 3-cü dəfə sayılması xəbərləri yanlışdır. Ümumən İstanbulda səslərin yenidən sayılması və keçərsiz səslərin sayılması cəmi 5 % əhatə edir. Yəni bütün İstanbulda səslərin yenidən sayılması deyə bir şey yoxdur. İkincisi, böyük saxtakarlıqların aşkarlandığı və hazırda səslərin yenidən sayıldığı Maltəpə rayonunda, bir seçki məntəqəsində, hansı ki bu məntəqədə 387 nəfər səs verib, həmin məntəqədə səslər bir daha sayılıb. 387 nəfərin səs verdiyi bir məntəqədə səslərin sayılmasını "İstanbulda səslər 3-cü dəfə sayılır" kimi təqdim etmək dezinformasiyadır. Təəssüf ki, Azərbaycanda da bu cür dezinformasiyaya biləkdən və bilməyərəkdən yoluxanlar çoxdur. Gedən proseslər Türkiyə demokratiyasını zədələyə bilər, amma bu xoşagəlməz olay məhz müxalifətin ucbatından baş verdi. CHP-nin nəzarətində olan bələdiyyələrdə səslərin saxtakarlığı baş verib və sonra da sübutlu, faktlı bunlar müəyyənləşdirilib. Baxın, yenidən həmin o şübhəli səslərin 5% sayılmağa başlayandan bu yana ortadakı fərq 27 mindən 12 min fərqinə Binəli Yıldırımın xeyrinə endi. Bu da böyük suallar doğurur. Bu suallara cavab isə ancaq şübhəli səslərin sona qədər sayılmasından sonra verilə bilər. CHP isə hər vəchlə şübhəli səslərin sayılmasına əngəllər törədir. Adama deyərlər, əgər belə əminsənsə qalibiyyətindən, onda niyə səslərin sona qədər sayılmasını əngəlləyirsən? Yəni problemləri AK Partiyada deyil, CHP-də axtarmaq lazımdır. Demokratik seçkiyə ciddi kölgə səslərin sona qədər sayılmaması sala bilər. Bu cür kölgəni isə CHP salır. Ümid edirik ki, CHP qərəzindən əl çəkib İstanbul seçkilərində demokratiyanın təntənəsinə əngəl törətməyəcək. Bütün suallara cavab almaq üçün təkrar seçkilər keçirilə bilər, keçirilməlidir də. Əks halda isə CHP-yə seçkilərdə qalib gəlməyə bu saxtakarlıq bəs edəcək. Bu isə demokratiyanın təməl prinsiplərinə zidd olduğu üçün qəbul edilə bilməz. Qardaş Türkiyədə demokratik ölkə olduğu üçün güman edirəm ki, müxalifətin belə saxtakarlığına imkan verilməyəcək, ədalətli nəticənin bərpa olunması üçün lazım gəlsə İstanbulda yenidən seçkilər keçiriləcək. Ədalətsiz nəticələr ləğv olunacağı təqdirdə saxtakarlar xaricdəki havadarları, sahibləri tərəfindən saxta demokratiya şüarları altında aranı qarışdırmağa çalışacaqlar. Amma artıq dövran o dövran deyil. Nə Amerika Türkiyəni qarışdırmaq üçün o gücdə deyil, nə də Türkiyə əvvəlki Türkiyə deyil ki, Amerikanın dediyi ilə durub otursun. Yəni bütün qeyri-qanuni cəhdlər son illərdə olduğu kimi yenə də türk dövləti tərəfindən yerindəcə alınacaq. İndiki durumda şəxsən mənə saxta nəticələrin ləğvi daha real görünür. Və ən doğru da bu olar".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İsrail İranın bazasını Azərbaycana satdığı raketin yeni modeli ilə vurdu



## Hava hücumu zamanı səsdən iti uçan ən yeni raket...

**İsrail aprelin 13-də Suriyanın Hama əyalətində İranın nəzarətindəki raket araşdırmaları və istehsalı mərkəzinə hava hücumu zamanı səsdən iti uçan ən yeni raketi tətbiq edib.**

Virtualaz.org İsrail qaynaqlarına istinadən xəbər verir ki, həmin raketə qarşı mövcud raket əleyhinə sistemlər, o cümlədən vurulan obyektin bilavasitə yaxınlığında yerləşdirilmiş S-300 PMU "Favorit" zenit-raket kompleksi faydasızdır.

Hərbi analitik Babak Taghvai bildirir ki, Masayyaf raket araşdırmaları mərkəzinə hücum zamanı tətbiq olunan raket İsrailin "Israel Aerospace Industries" (IAI) və "Israel Military Industry Systems" (IMI) şirkətləri tərəfindən birgə istehsal olunan "Rampage" raketidir.

Söhbət böyük təsir radiusuna malik olan və səsdən iti sürətlə uçan, ən yeni naviqasiya avadanlığı quraşdırılmış raketdən gedir. "Rampage" yaşı mühafizə olunmuş hədəfləri nisbətən aşağı xərclə məhv etməyə imkan verir.

Bu raket təyyarədən buraxılandan sonra bir neçə yüz kilometr məsafədə hədəfləri vura bilir. Raketdə quraşdırılmış sistem şrapnellərin miqdarına da nəzarət etməyə imkan verir ki, bunun sayəsində həmin silahla sözün əsl mənasında "cərrahi" zərbə endirmək olur.

Raketlər F-16 və F-35 qırıcılarında quraşdırıla bilir və düşmənin raketdən müdafiə sistemlərinə, silah anbarlarına və logistika bazalarına qarşı nəzərdə tutulub.

Məsələ burasındadır ki, hava-yer tipli "Rampage" raketləri İsrailin IMI şirkəti tərəfindən işlənib hazırlanan "EXTRA" yerüstü raket sisteminin modifikasiyasıdır. Bu raketlər İsraillə yanaşı 2013-cü ildən etibarən Azərbaycan və Vyetnam ordularının silahlanmasında yer alır. Azərbaycan Silahlı Qüvvələrinin "EXTRA" raketləri dəfələrlə hərbi paradlarda və təlimlərdə nümayiş olunub. Bu raketlər 150 kilometr mənzillidir və 120 kiloqram ağırlığında döyüş başlığı ilə təchiz olunub. Dəqiqliyi 10 metrə qədərdir.

"EXTRA" raketləri IMI tərəfindən işlənib hazırlanan "LYNX" buraxılış qurğusundan buraxıla bilər, lakin digər münasib buraxılış qurğularında da tətbiq edilməsi mümkündür.




IMI həmin raketlərin hava-yer versiyasını işləyib hazırlayıb və bu ildən etibarən seriya istehsalını həyata keçirir. "Rampage" raketləri "EXTRA" raketlərindən ancaq xarici dizaynında edilmiş cüzi dəyişikliklərlə fərqlənir. Bu raketlərin ilkin variantı "MARS" adlandırılmışdı, daha sonra şirkət raketə "Rampage" adı verib.

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# Taksilərdə siqaret qadağası qanuniləşdi: proses necə tənzimlənəcək?

## Sürücülər qanundan xəbərdardırlar, amma sual edirlər:

## "Onda gərək hər taksinin dalına bir polis maşını düşə?"

**Prezident İlham Əliyev aprelin 15-də "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Qanunun tətbiqi barədə 2017-ci il fevralın 23-də imzaladığı fərmana dəyişiklik edib. Söhbət "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı"nın təsdiq edilməsi barədə sənədə dəyişiklikdən gedir. Fərman taksidə siqaret çəkənləri hansı dövlət qurumunun cərimələyəcəyini müəyyən edir.**

Sənədə əsasən, taksi minik avtomobilində tütün çəkənləri Daxili İşlər Nazirliyinin əməkdaşları cərimələyəcək. Bu cərimənin məbləği 40 manatdan 50 manatadəkdir.

Bəs məsələ ilə bağlı taksi sürücüləri nə deyirlər?

"Yeni Müsavat"ın əməkdaşı Bakıda fəaliyyət göstərən taksi sürücüləri ilə söhbət edib, onların qanuna münasibətini öyrənib.

Sürücülərin fikirlərinə keçməzdən öncə yada salaq ki, Milli Məclisdə ötən il siqaretlə bağlı qadağalar müzakirə edilmişdi. Belə ki, Milli Məclis 2018-ci il oktyabrın 1-də İnzibati Xətalar Məcəlləsinə bununla bağlı dəyişikliklər etmişdi. Deputatlar həmin məcəllənin 212 və 322-ci maddələrinə dəyişiklik layihəsini müzakirəyə çıxarmışdılar. Konkret desək, məcəllənin "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması" adlanan 322-ci maddəsinə siqaretlə bağlı dəyişiklik olunmuşdu.

Dəyişikliyə görə, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində, taksilərdə siqaret çəkənlər 40-50 manat cərimə olunmalıdırlar. Azərbaycanda siqaretlə bağlı qanunvericilik 2017-ci ildə də sərtləşdirilib. Parlament həmin ilin dekabrında "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul edib.

Həmin qanun səhiyyə, elm, təhsil müəssisələrində, muzeylərdə, kitabxanalarda, kinoteatr, sirk binalarında, sərgi və nümayiş salonlarında siqaret çəkilməsinə icazə vermir. Habelə, bura idman yarışları, konsert və digər kütləvi tədbirlərin keçirildiyi zallar, ticarət, məişət, sosial xidmət obyektləri daxildir.



Siqaret çəkməkdən ötrü ayrılan xüsusi yerlər istisna olunmaqla hava, dəniz (çay) limanlarının inzibati binalarında, dəmir yolu vağzallarında, avtovağzallarda (avtostansiyalarda) və avtobus dayanacaq məntəqələrində də siqaret çəkilməsinə icazə verilmir.

Qanun iş yerlərində siqaret çəkilməsinə yerin ayrılmasını işəgötürənin ixtiyarına buraxır. Bu qaydaları pozanlar isə mülki, inzibati qaydada məsuliyyət daşıyırlar.

Ancaq bu gün görürük ki, qəbul edilən qanuna heç də əməl olunmur. Yenə də kafelərdə, yuxarıda qadağan olunmuşlar siyahısında adıçəkilən yerlərdə siqaret çəkənlərə rast gəlinir. Bəs siqareti taksidə qadağan etmək mümkün olacaqmı?






**Taksi sürücüləri ilə söhbətimizdə onlar bildirdilər ki, hazırda cavan sürücülərin çoxu maşında siqaret çəkilməsinə razılıq vermir. Bu barədə "Yeni Müsavat"a danışan sürücü Fərman Abdulov aşağıdakıları söylədi:** "Taksidə istifadə edilən avtomobillərin ili ilə bağlı qadağa qoyulandan sonra bütün taksi fəaliyyəti göstərən maşınlar yeniləndi. İndi əksər maşınların istehsal ili 2007-dən sonraya aiddir. Cavan sürücülərin çoxu şirkətlərdə işləyirlər. Taksi şirkətləri də tələb qoyurlar ki, sürücülər sərnişinlə nəzakətli davransın, avtomobili təmiz saxlasın və sairə. Sürücü razı qalmayanda şirkətə şikayət edə bilir. Ona görə də əksər sürücülər taksidə siqareti çoxdan qadağan ediblər. Ancaq sovet maşınlarında, kəndlərə işləyən taksilərdə siqaret çəkənlərə rast gəlinir".

**Hər gün 8-ci kilometr bazarının yanından Kürdəxanıya 1 manatdan sərnişin daşıyan sürücü Əhməd bildirdi ki, maşınında sərnişinlər çox vaxt siqaret çəkirlər:** "Yeni qərardan xəbərimiz var. Taksidə qadın olmayanda, mən də, sərnişin də siqaret çəkirik. İndi yəqin ki, qaydalara uyğun olaraq çəkməyəcəyik. Ancaq inanmıram ki, bu qanun da işləyə. Məsələn, Kürdəxanı yolunda elə küçələr var ki, orada heç vaxt polis olmur. Onda gərək hər taksinin dalına bir polis maşını düşə, içərini izləyə. Çətin məsələdir, görək axırı necə olur".

Taksi sürücüləri söylədilər ki, hələ ki onlara məsələ ilə bağlı yol polisi tərəfindən xəbərdarlıq edən olmayıb.

**Bəs bu qanun necə işləyəcək?**

**"Yeni Müsavat"a danışan nəqliyyat üzrə ekspert İlqar Məmmədov söylədi ki, əslində digər qonşu ölkələrdə oxşar qanun uzun müddətdir ki, tətbiq olunur:** "Türkiyə Cümhuriyyətində bu qanun çox mütəşəkkil şəkildə tətbiq olundu və faydasını da hər kəs görür. Orada vətəndaşlar artıq ictimai nəqliyyatda siqaret qadağasını qəbul ediblər və riayət də edirlər. Burada cərimələrin tətbiqi məsələsi də var. Artıq sürücülərin özləri bilavasitə sərnişinləri təşviq edəcəklər ki, siqaret çəkməsinlər. Azərbaycanda bir zamanlar 90 faiz sürücülər təhlükəsizlik kəmərindən istifadə etmirdilər. Ancaq son tətbiq edilən cərimə və qadağaların sərtləşdirilməsi lazımi effektin alınmasına səbəb oldu. Buna mənada hesab edirəm ki, taksidə siqaret qadağasına da sərnişinlər öyrəşəcəklər. Bu, doğru qərardır. Təəssüf ki, kafe və restoranlarda da qadağanın olmasına baxmayaraq, buna tam olaraq əməl edilmir. Orada da cərimələr mütəşəkkil olarsa, sözsüz ki, bu, öz praktik həllini tapmış olar. Fərdi nəqliyyat vasitələrində insanlar siqaretdən istifadə edirlərsə, artıq salonda olan insanların hamısı tüstünü qəbul edirlər. Siqaretin passiv iştirakçıları isə tibbi baxımdan daha çox zərər görürlər. Kompleks formada yanaşanda qəbul edilən qərar olduqca əhəmiyyətlidir".

**Ekspert bildirib ki, yol-hərəkəti qaydalarını pozan sürücülərin bir çoxu siqaret çəkdikləri an bunu edirlər:** "Siqaretin qeyd etdiyimiz ziyanları ilə yanaşı, başqa bir zərəri də var. Belə ki, siqaret çəkən sürücü avtomobil qəzalarına, yol-hərəkəti qaydalarının pozulmasına da səbəb olur. Siqareti yandırma anında sürücünün diqqəti yayınır və qəza qaçılmaz olur. Təcrübədə bir neçə belə hal da olub ki, avtomobildə siqaret çəkilməsi nəticəsində nəqliyyat vasitəsi alışıb. Biz burada siqaretə yalnız ətraf mühitə, insanların sağlamlığına zərər verən bir faktor kimi yanaşmırıq. Eyni zamanda məsələyə nəqliyyat hadisələrinin və yol-hərəkəti qaydalarının pozulması kontekstindən də yanaşmaq lazımdır".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir.**

# Mühasiblərlə "haqq- hesab" vaxtı-qanun sərtləşir

## Mühasib olmayan şəxslərin baş mühasib vəsifəsinə təyin edilməsinə və daha nələrə görə...

**İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilir. Modern.az-ın məlumatına görə, bununla bağlı qanun layihəsi Milli Məclisin aprelin 23-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.**

Sənədə görə, mühasibat uçotu subyekti tərəfindən maliyyə hedabatlarının və birləşdirilmiş maliyyə hesabatlarının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməli olan digər hesabat və məlumatların hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanuna əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin əks etdirilməsi, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunla müəyyən edilmiş qaydaların pozulmasına, habelə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq mühasibat uçotunun aparılmamasına görə vəzifəli şəxslər 300 manatdan 400 manatadək məbləğdə, hüquqi şəxslər 1100 manatdan 2000 manatadək məbləğdə cərimə edilir.

462.2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq mühasibat uçotu subyektlərində mühasibat uçotunun aparılması məqsədi ilə və ya müqavilə əsasında sahibkarlıq subyektləri cəlb edilməklə mühasibat uçotu xidmətinin göstərilməsinin təşkil edilməməsinə görə vəzifəli şəxslər 300 manatdan 400 manatadək məbləğdə cərimə olunur.

462.3. Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla digər ictimai əhəmiyyətli qurumların, sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin rəhbərləri tərəfindən peşəkar mühasib olmayan şəxslərin baş mühasib vəsifəsinə təyin edilməsinə, habelə peşəkar mühasib olmayan şəxslərə baş mühasib vəzifələrinin icrasının həvalə edilməsinə görə vəzifəli şəxslər 300 manatdan 400 manatadək məbləğdə cərimə edilir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 462.3-cü maddəsi həmin maddədə göstərilən mühasibat uçotu subyektlərinə münasibətdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsi ilə müəyyən edilmiş müddətlər nəzərə alınmaqla tətbiq edilir.



YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# Parisin "damının" yanması: "Notr-Dam"ın tarixi

## Bu kilsə Napoleonun tacqoyma mərasimi, Bordo hersoqunun xaç suyuna salınması, Adolf Tier və Sadi Karnonun dəfn mərasimləri kimi tarixi hadisələrə şahidlik edib

**Aprelin 15-də Fransanın paytaxtındakı məşhur "Notr-Dam" kilsəsində yanğın dərhal dünya xəbər agentliklərinin "bir nömrəli" mövzusuna çevrildi. 10 saat davam edən yanğını yalnız gecə yarısından sonra söndürmək mümkün olub. İlkin məlumatlara görə, yanğına kilsənin yuxarı səviyyələrində aparılan təmir işləri səbəb olub. Belə ki, ötən il Fransanın Katolik Kilsəsi binanı bərpa etmək üçün maliyyə ayrılmasını istəmişdi. Çünki son illərdə binanın dağılma təhlükəsi var idi.**

### Dünyanın "Notr-Dam"ın yanmasına verdiyi reaksiya...

Məşhur tarixi abidə yanarkən minlərlə insan kilsənin ətrafındakı küçələrə toplaşaraq həyəcan içərisində yanğını seyr edib. Onlardan kimisi ağlayıb, kimisi binanın yanğından qurtulması üçün dualar edib.

**ABŞ prezidenti Donald Tramp** kilsənin yanmasına münasibət bildirən ilk dünya siyasətçilərindən biri olub. Tramp öz twitter hesabında bildirib: ""Notr-Dam-Paris" kilsəsinin bu cür yandığını görmək dəhşətdir".

**İngiltərənin baş naziri Tereza Mey da yanğını "dəhşətli hadisə" adlandırıb. Rəsmi Vatikan da yanğınla bağlı həyəcanını bildirib:** ""Notr-Dam" kilsəsi xristianlığın Fransada və bütün dünyada simvollarından biridir. Biz şok və kədər içində bu kilsənin dağılmasını seyr edirik. Biz Fransa katolikləri ilə vəhdətdəyik. Ürəyimiz parislilərlə bir vurur".

Almaniya kansleri Angela Merkel "Notr-Dam" kilsəsini "Fransa və Avropa mədəniyyətinin simvolu" adlandırıb.

UNESCO isə "Hər il Eyfel qülləsindən çox, təxminən 13 milyon ziyarətçisi olan qiymətli abidəni qorumaq və yenidən təmir etmək üçün Fransanın yanında olduğunu" bildirib.

Fransa prezidenti Makron isə yanğın baş verən zaman ölkədə baş verən aylarla davam edən küçə etirazlarına münasibət bildirməli olduğu televiziya çıxışını ləğv edib. Prezident mətbuata açıqlamasında kilsənin yenidən əvvəlki vəziyyətinə qaytarılacağı barədə söz verib. Yanğından sonra hadisə yerinə gələn Makron kilsənin binasının əsas gövdəsinin qurtarılmasını təqdir edib və bildirib ki, "ən pisi" geridə qalıb. Prezident yenidənqurma üçün beynəlxalq kampaniya aparılacağını da vəd edib: ""Notr-Dam" Fransanın bir hissəsidir. Onun yenidən qurulma işləri üçün başladılacaq kampaniya yaxın illərdə də mövcud olacaq".

Dünya mətbuatında yayılan məlumatlara görə, məşhur "Gucci" və "Yves Saint Laurent" şirkətinin rəhbəri kilsənin yenidən qurulması üçün 100 milyon ianə ayırıb.



### Kilsədən hansı sənət əsərləri qurtarıldı?

Fransa mətbuatının yazdığına görə, təhlükəsizlik komandası yanan kilsədən çox dəyərli əsərləri, dini əşyaları çıxara bilib. Ən əsası isə çarmıxa çəkilməzdən əvvəl İsa peyğəmbərin qoyduğu deyilən tikanlı tacı, X Kral Luisin tikanlı tacı Parisə gətirərkən geydiyi deyilən tunika da qurtarılıb.



### Heç bir abidə "Notr-Dam" kilsəsi qədər Fransanı təmsil edə bilməz

Onu bəzən qismən Eyfel qülləsi ilə müqayisə edirlər. Lakin bu kilsə 1200-cü illərdən bu günə qədər Parisdə ən yüksək zirvədə dayanıb.

Qeyd edək ki, kilsə Parisin II Jan-Pol meydanında yerləşir. Qotik üslublu kilsənin inşasına 1163-cü ildə Paris yepiskopu Moris de Süllinin təşəbbüsü ilə başlanılıb. Kilsənin tam inşası 1345-ci ildə başa çatıb. Kilsədə həm erkən qotik memarlıq üslubu, həm də XIII əsr qotik memarlıq üslubu cəmlənib. Transeptin hər iki tərəfindəki qızılgül pəncərələri öz həcmlərinə görə Avropada ilk sıradadır. İnşası tamamlananda bu kilsə Qərbin ən böyük kilsələrindən biri olub.

İnqilablardan sonra 1844-1864-cü illərdə arxitektor Violle-le-Dükün rəhbərliyi altında kilsə restavrasiya olunub və yeni motivlər əlavə edilib.

Bu kilsə Napoleonun tacqoyma mərasimi, Bordo hersoqunun xaç suyuna salınması, Adolf Tier və Sadi Karnonun dəfn mərasimləri kimi tarixi hadisələrə şahidlik edib. Həmçinin 1853-cü il yanvarın 30-da III Napoleonun nikah mərasimi "Notr-Dam" kilsəsində baş tutub.

XIX əsrin 70-ci illərində Paris Kommunası kilsənin dağıdılması barədə qərar verib. Kommuna nümayəndələri skamya və stullara atəş açıb, kilsəni yandırmağa çalışıb, lakin ciddi bir ziyan vura bilməyib.

Viktor Hüqo "Paris Notr-Dam kilsəsi" romanını yazıb və bu roman çox böyük şöhrət qazanıb. Romanın yazılmasında əsas məqsəd kilsəyə olan diqqəti artırmaq idi. Əsərdə həmçinin kilsənin dağıdılması, xəzinəsinin talanması, pəncərələrinin qırılması və baş yepiskopların öldürülməsi məsələlərinə xüsusi diqqət çəkilir.

Bu əsər kilsəyə böyük maraq yaradır. Viktor Hüqonun romanı ölümcül vəziyyətdə olan tarixi abidəyə yeni həyat verir. Bundan sonra kilsə təmir edilir, tikiliyə memarlar tərəfindən yeniliklər əlavə edilir.

Sonuncu dəfə kilsə Fransız inqilabı zamanı zərər görmüşdü. Kilsə iki dünya müharibəsindən salamat çıxmışdı.

Kilsənin 850 illik yubileyi münasibətilə böyük işlər görüldü. Bəzi yerlər yenidən restavrasiya edildi, axşam ziyarətləri və konsertlər üçün şərait yaradıldı. 2013-cü ildə böyük orqanın idarə edilməsi tamamilə kompüterləşdirildi. 2014-cü ildə isə kilsədəki 12 min boru təmizləndi. Yeni qapı kilidləri və xüsusi naqillər quraşdırılmış yanğından mühafizə sistemi quruldu.

Naqillər kilsənin dizaynını pozmasın deyə gizlədildi.

Beləliklə, kilsəyə orta əsrlərdəki görünüşünə oxşar görünüş verildi.

2017-ci ildə kilsənin baş yepiskopu yenidən restavrasiya üçün 20 il müddətində 100 milyon avroluq məbləğin yığılması ilə bağlı çıxış etdi. 10 milyon avro işçilər üçün, 10 milyon avro kilsənin yanında müqəddəs yer üçün, 20-30 milyon avro isə su arxlarının dayaqlarını gücləndirmək üçün nəzərdə tutulmuşdu.

1931-ci il fevralın 11-də Parisdə sürgün həyatı yaşayan meksikalı intellektual gənc kilsənin mərkəzində, 2013-cü il mayın 21-də isə yazıçı Dominik Venner qurbangah qarşısında özünü vuraraq intihar edib.

Onu da əlavə edək ki, hər il ən azı 13 milyon turist bu kilsəni ziyarət edir.

### Azərbaycan "Notr-Dam" kilsəsinə maliyyə vəsaiti ayırıb, amma...

Qeyd edək ki, Parisdəki məşhur "Notr-Dam" kilsəsinin yanması xəbərinin ardınca Azərbaycanın bəzi xəbər saytlarında vaxtilə bu kilsənin yenidən qurulması üçün ölkəmizin vəsait ayırdığı barədə məlumatlar yayılıb. Lakin məlumat yanlışdır. Belə ki, 2009-cu ilin iyununda Heydər Əliyev Fondu Fransanın Strasburq şəhərinin mərkəzində yerləşən kilsənin təmiri ilə əlaqədar maliyyə vəsaitini təqdim edib. Əslində bu abidə "Notr Dame de Strasbourg Katedral" adlanır. Kilsə Parisin "Notr Dam" abidəsinə çox bənzəyir. Məlumat üçün bildirək ki, bu kilsəni bir neçə memar tiksə də 1277-1318-ci illərdə onu indiki görünüşünə gətirən Ervin von Steninbax olub. 1874-cü ilə qədər 142 metrlik kilsə dünyanın ən hündür binası olub. Viktor Hüqo kilsəni görərkən heyrətini gizlətməyib və onu "möhtəşəm və zərif xarüqə" adlandırıb.

❑ **Xalidə GƏRAY**
**"Yeni Müsavat"**

# Fransanın siyasəti bir miqrantın gözü ilə - ermənipərəst, yoxsa...

## Elnur Məcidli: "Fransanın ermənipərəst ölkə kimi xatırlanmasını istəməzdim, çünki..."

**Fransanın Azərbaycan üçün əhəmiyyətli bir ölkə olub-olmadığı yönündə daim müzakirələr gedir. Rəsmi Parisin zaman-zaman ermənipərəst mövqedən çıxış etməsi, qondarma "erməni soyqırımı" ilə bağlı mövqeyi bu dövləti təkcə ölkəmizdə deyil, türk dünyasında müzakirə obyektinə çevirir.**

Hər kəsə bəllidir ki, Fransa ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsindən biridir. Amma həmsədr olduğu müddət ərzində Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diqqətçəkən bir fəaliyyətinin şahidi olmamışıq. Əksinə, Azərbaycanı qıcıqlandıran ermənilərə yönəlik bəzi addımlarının şahidi olmuşuq. Məhz bu səbəblərdən rəsmi Paris tənqidlər hədəfinə tez-tez tuş gəlir. Bütün bunlara baxmayaraq, Fransanın Azərbaycan üçün önəmli, strateji tərəfdaş olduğunu düşünənlər də az deyil.

**Parisdə yaşayan soydaşımız, blogger Elnur Məcidli "Yeni Müsavat"da məsələyə bu cür şərh verdi:** "Fransa və Azərbaycan əlaqələrinin çox geniş tarixi təhlilə ehtiyacı var. Hələ ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin iştirak etdiyi Paris Sülh Konfransında Fransa Azərbaycanın müstəqilliyini de-fakto tanımışdı. Sonrakı illərdə SSRİ-nin tərkibində Azərbaycanla mədəni əlaqələr qismən davam edirdi. Həmçinin Sovet Azərbaycanından Fransaya sığınmış yüzlərlə azərbaycanlı mühaciri də unutmaq olmaz.



Onlar və onların nəvə-nəticələri ikitərəfli əlaqələrin inkişafında öz töhfələrini verməkdə davam edirlər. Sovet İttifaqı 31 dekabr 1991-ci ildə rəsmi olaraq süqut etdikdən 3 həftə sonra Fransa Azərbaycanın müstəqilliyini tanıyıb və 1992-ci ilin mart ayında Bakıda öz səfirliyini açmaqla ölkəmizlə ilk diplomatik əlaqələri quran ölkələrdən biri olub. Eyni zamanda təsadüfi deyil ki, Heydər Əliyev 1993-cü ildə, İlham Əliyev də 2003-cü ildə prezident seçildikdən sonra ilk rəsmi səfərlərini məhz bu ölkəyə ediblər. Bu səfərlər özü belə mesaj xarakterli idi. Həmçinin dünyanın aparıcı dövlətlərindən biri kimi, Fransanın son üç prezidentinin də ölkəmizdə rəsmi səfərdə olmasını Azərbaycana verilən qiymət kimi də dəyərləndirmək olar. Son 25 ildə Fransa-Azərbaycan əlaqələri iqtisadi, mədəni və siyasi sahələrdə çoxşaxəli inkişaf edib. Azərbaycanın ilk peyki Azerispace 1-in kosmosa göndərilməsi də məhz iki ölkə arasında yüksək kosmik texnologiyalar sahəsində qurulan sıx əməkdaşlıq sayəsində mümkün olub. Həmçinin Fransanın ATƏT-in Minsk Qrupundakı varlığı dialoqlarda Rusiya təsirini azaldır, daha açıq, tərəfsiz və şəffaf danışıqlara zəmin hazırlayır. Fransanın ermənipərəst ölkə kimi xatırlanmasını istəməzdim, bu ölkədə plüralizm var və başqa millətlər say olaraq az olmalarına baxmayaraq, daha kompakt şəkildə fəaliyyət göstərməyi bacarırlar və daha çox öz səslərini duyururlar, bu həmin dövlətin mövqeyi deyil, sadəcə, biz də yaşadığımız ölkəyə inteqrasiya edərək, daha ciddi fəaliyyət göstərərək, öz səsimizi duyurmağa çalışmalıyıq".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# "Enerji kollapsı"ndan tam sığorta- "Şimal-2" işə düşür

## İlham Şaban "Azərenerji"nin sabiq rəhbərliyini suçladı: "Yeni rəhbərliyə nə miras qaldığını təsəvvür etmək çətin deyil..."

**Bakının Şüvəlan qəsəbəsində inşa olunan 400 MVt-lıq "Şimal-2" Elektrik Stansiyasının tikintisi son aylarda sürətləndirilib. Bununla bağlı "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin yaydığı məlumata görə, stansiyada işlər artıq yekunlaşmaq üzrədir: ""Şimal-2" Elektrik Stansiyasının enerji blokunda Yaponiyanın "Mitsubishi" şirkətinin mütəxəssisləri ilə birlikdə sazlama işləri davam edir və hər həftənin bir günü qurğu işə salınaraq yoxlanılır. Yayda "Şimal-2" Elektrik Stansiyası istismara buraxılacaq".**

ASC-dən bildirildiyinə görə, "Şimal-1" və "Şimal-2" elektrik stansiyaları üzrə ümumilikdə il ərzində 5,7 milyard kVts elektrik enerjisi istehsal ediləcək.

Qeyd edək ki, "Şimal-2" elektrik stansiyasının təməli 2011-ci ilin sentyabrında qoyulub. Ölkə prezidentinin də iştirak etdiyi təməlqoyma mərasimində verilən məlumatda bildirilib ki, "Şimal" stansiyası ərazisində ikinci buxar-qaz qurğusunun inşası Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin dövlət zəmanətli krediti hesabına həyata keçiriləcək. 2010-cu ilin avqust-noyabr aylarında keçirilən beynəlxalq tenderin nəticələri əsasında Yaponiyanın "Toyo Engineering Corporation" və Azərbaycanın "Azenco" Açıq Səhmdar Cəmiyyəti konsorsiumu ilə "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti arasında müqavilə imzalanıb.

Qurğunun komponentlərinə qaz və buxar turbinləri, qazan-utilizator və generator daxildir. Bundan başqa, müasir soyuducu su sistemi, 220, 110 və 35 kilovoltluq tam qapalı yarımstansiya, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması qurğusu da yaradılmalıdır. Turbinləri və generatoru Yaponiyanın "Mitsubishi Heavy Industries" şirkəti təchiz etməli, əsas avadanlığın bir hissəsi və köməkçi avadanlığın təchizatı, eləcə də bütün tikinti-quraşdırma işləri "Azenco" ASC tərəfindən həyata keçirilməli idi.

Quraşdırılacaq buxar-qaz qurğusunun faydalı iş əmsalı 56,1 faiz, 1 kilovat-saat elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın miqdarı 220 qram təşkil etməlidir. Qurğu ildə 3,2 milyard kilovat-saat elektrik enerjisi istehsal edəcək.

Qeyd edək ki, "Şimal-2"nin ümumi dəyəri 330 milyon dollardan yuxarıdır. Bunun 275 milyon dollardan çoxunu Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının ayırdığı kredit təşkil edir. Azərbaycana kredit illik faiz dərəcəsi 0,75 faiz olmaqla 10 il güzəşt müddəti ilə 40 il müddətinə verilib.

Maraqlıdır ki, stansiyanın 2013-cü ilin sonunda başa çatdırılması nəzərdə tutulsa da, bu proses hələ də yekunlaşmayıb. Ölkə rəhbərliyinin birbaşa nəzarətində olan tikinti işlərinin yaya qədər başa çatdırılması ölkədə enerjiyə artan tələbat fonunda mühüm əhəmiyyət kəsb edir. Belə ki, "Azərenerji" ASC-dən verilən məlumata görə, 2019-cu ilin birinci rübü ərzində Azərbaycanda 6.151 milyard kvts elektrik enerjisi istehsal edib. Bu isə ötən ilin birinci rübü ilə müqayisədə 153 milyon kvts və ya 2,5 faiz çoxdur. Xatırladaq ki, ötən ilin birinci rübündə 5.998 milyard kvts elektrik enerjisi istehsal edilmişdi.

İstehsalla yanaşı, ölkədaxili istehlak və xaricə ixrac da artır. Mart ayında elektrik enerjisinin ixracı ötən ilin mart ayı ilə müqayisədə artıb. Əgər 2018-ci ilin mart ayında qonşu ölkələrə 131 milyon kvts elektrik enerjisi ixrac edilmişdisə, 2019-cu ilin mart ayında 161 milyon kvts ixrac edilib. Bu isə 30 milyon kvts və ya 23 faiz artım deməkdir.

2018-ci ilin birinci rübü ilə müqayisədə 2019-cu ilin birinci rübündə elektrik enerjisinin istehlakı isə 3,41 faiz artıb. Ən əsası isə ötən ilin mart ayı ilə müqayisədə bu ilin mart ayında istehlak 6,1 faiz çox olub ki, bu da kifayət qədər ciddi artım olmaqla yanaşı, elektrik enerjisinə artan tələbat tempinin getdikcə yüksəldiyini göstərir.

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın "Yeni Müsavat"a bidirdiyinə görə, "Şimal-2" istilik elektrik stansiyasının tikintisi "Azerenerji" tarixində müddətinə görə bir rekorddur:** "Səkkiz ilə 400 MVt-lıq bir elektrik stansiyası tikmək bunun özü elə "Ginnesin antirekordlar" kitabına namizədlik deməkdir. Bundan öncə "Azərenerji "Cənub" istilik elektrik stansiyasını tikib istifadəyə verməkdə uzun müddət çalışmışdı. Onun təməli 2007-ci ilin sonunda qoyulsa da, 2013-cü ilin yayında istifadəyə verilmişdi. Ancaq həmin stansiyanın layihə gücü 780 MVt idi. Bu baxımdan" "Şimal-2" elektrik stansiyasının tikintisinin qrafikdə nəzərdə tutulduğundan 6 il gecikmə ilə istifadəyə verilməsi məhz onun göstəricisidir ki, Azərbaycan hökumətində uzun müddət ölkənin strateji əhəmiyyətə malik "Azərenerji" kimi bir dövlət obyektinə faktiki nəzarət mexanizmi olmayıb, olanlar isə kifayət qədər işləməyib. Məhz bunun nəticəsi özünü ötən ilin iyul ayındakı "enerji kollapsı" hadisəsində göstərdi. Çünki bu sahəyə məsul şəxslər, sadəcə, dövlət başçısına və hökumətə statistik rəqəmlər açıqlamaqla öz vəzifələrini bitmiş hesab ediblər. Yəni elektrik stansiyalarının layihə güclərini dilə gətiriblər və bununla kifayətləniblər".

**Ekspert bildirir ki, reallıqda elektroenergetika sektorunda vəziyyət acınacaqlı olub:** "Belə ki, elektrik stansiyalarının real elektrik hasiletmə gücü ümumi layihə güclərinin heç 70 faizi qədər olmayıb. Bəzi elektrik stansiyaları üzrə bu göstərici hətta 60 faiz ətrafında olub - onlardan biri də məhz layihə gücünə görə öyünə bilinəsi sayılacaq (780 MVt) "Cənub" elektrik stansiyası olub. Niyə belə vəziyyət yaranıbmış? Texnika elə bir şeydir ki, onu təkcə istismara verməklə iş bitmir. Texnikaya gərək texniki şərtlərinə görə vaxtlı-vaxtında qulluq edəsən və istismar da texnoloji qaydalara müvafiq olaraq həyata keçirilməlidir. Yəni avtomobil kimi. Əgər hər 5 min km-dən bir mühərrikin yağı dəyişdirilməlidirsə, yanacaq kimi A-95 markalı benzindən istifadə edilməlidirsə, siz onun yağını hər 15 mindən bir dəyişəcəksinizsə və 92 markalı benzindən istifadə edəcəksinizsə, onda avtomobil tezliklə sıradan çıxmasa belə, onun mühərriki artıq texniki pasportunda yazılmış gücü heç zaman verməyəcək. Elektrik stansiyasındakı generatorlar da belədir. "Azərenerji"nin əvvəlki rəhbərliyi hər stansiyanın qırmızı lenti kəsiləndə gərək raport verəydi ki, ixtisaslı kadrlardan tutmuş, ta maşın-mexanizmlərə qədər normativlərlə istismarı üçün onun resursları necə həll edilib. Bunlara isə barmaqarası yanaşılıb. Nəticədə "Azərenerji"nin işçi kadrlarının 50 faizinin orta əmək haqqı 300 manatdan aşağı olub, yaxşı kadrları daha yaxşı iş şəraiti olan "Azərişığa" axın edib və gördüyümüz mənzərə - orta güclü bir elektrik stansiyasını 7 ilə əvvəlki menecment ilə "Azərenerji" tikib başa çatdıra bilmədi. Bu baxımdan, "Azərenerji"nin yeni rəhbərliyinə nə miras qaldığını təsəvvür etmək çətin deyil. Ancaq düşünürəm ki, yaxın perspektivdə - maksimum 3 ilə həm keyfiyyət baxımından, həm kəmiyyət baxımından "Azərenerji" sistemində 15 ildə nail olunmayan dəyişiklikləri müşahidə etmək mümkün olacaq: avtomatik elektrik idarəetmə tənzimləməsindən tutmuş, ölkənin elektrik enerjisi təhlükəsizliyi və daha qənaətcil sistemdə işləyən bir generasiya şəbəkəsi. Çünki Avropa standartlarında elektrik stansiyalarının tikintisinə kapital qoyuluşu edib və 1 kVt\saat elektrik enerjisini hasil etmək üçün sovet standartları ilə şərfiyyat göstərmək - təbii ki, bu məntiqsizliyin bir sonu olmalıydı"...



❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

**Elan**

**Əliyev Vəkil Vəli oğlunun adına olan 1402865171 saylı VÖİN Şəhadətnamə istidiyi üçün etibarsız sayılır.**

# BP Xəzərdə qazma və layihələndirmə üzrə yarım milyardlıq müqavilə imzalayıb

**"Azəri-Çıraq-Günəşli" (AÇG) neft yatağının və "Şahdəniz" qaz yatağının operatoru olan BP şirkəti Azərbaycanda qazma və mühəndis-layihələndirmə işləri üzrə müqavilənin müddətini uzadıb.**




Musavat.com şirkətin ictimaiyyətlə əlaqələr xidmətinə istinadən xəbər verir ki, 500 milyon ABŞ dolları dəyərində olan yeni müqavilə "KCA Deutag" şirkəti ilə SOCAR AQŞ-nin birgə müəssisə olan "Turan Drilling & Engineering Company" MMC ilə imzalanıb.

Şirkət bildirir ki, bu, Xəzər regionunda operator qismində çıxış edən BP-nin yerli tərəfdaşı olan şirkətlə bağladığı digər bir iri müqavilədir: "Bu, BP və tərəfdaşlarının regionda fəaliyyətə başladığı vaxtdan prioritet sahə kimi yerli potensialın yaradılmasına və yerli bazarın gücləndirilməsinə töhfə verməklə, yerli resurslardan istifadənin inkişaf etdirilməsi üzrə həyata keçirdiyi uğurlu strategiyaya söykənir. Həmçinin BP və tərəfdaşlarının hökumət və SOCAR ilə sıx əməkdaşlıq edərək Xəzərdəki ehtiyatların daha səmərəli və rəqabətədavamlı şəkildə işlənməsinə dair biznes məqsədlərinə uyğundur".

Müqavilə BP tərəfindən idarə olunan yeddi platformanın qazma qurğusu, o cümlədən Mərkəzi Azəri, Şərqi Azəri və Qərbi Azəri, Dərinsulu Günəşli, Qərbi Çıraq, Çıraq və Şahdəniz qurğuları üzrə dənizdə istismar əməliyyatları və texniki xidmət işlərini əhatə edir. Müqavilənin ilkin müddəti iki dəfə bir illik müddətə uzadılma imkanı olmaqla beş il təşkil edir .

**BP-nin quyular üzrə vitse-prezidenti Mayk Zanqi bildirib ki, Xəzər regionunda uzun müddətdir təhlükəsiz və səmərəli şəkildə fəaliyyət göstərən operator kimi "KCA Deutag" şirkətinin beynəlxalq təcrübəsinin və Xəzər regionundakı 20 ildən artıq iş təcrübəsinin SOCAR AQŞ-nin Xəzərə dair dərin bilikləri və Xəzərdə qazma sahəsindəki aparıcı fəaliyyəti ilə birləşməsini alqışlayırlar:** "BP regiondakı 27 illik uğurlu fəaliyyəti çərçivəsində Xəzərdə dünya səviyyəli platformaların istismarını həyata keçirir. Ümid edirik ki, bu yeni müqavilə əməyin təhlükəsizliyi, yerli bacarıqların inkişaf etdirilməsi, xərclərin səmərəliliyi, rəqabətə davamlılıq və qlobal sənaye standartları üzrə götürdüyümüz davamlı öhdəliyimizi dəstəkləyəcək".

❑ **DÜNYA, Musavat.com**

YENİ MÜSAVAT
N 81 (7251) 17 aprel 2019

# Yüz minlərlə adamı düşündürən sual: Badamdar yolu açılacaq, yoxsa...

## Müvafiq qurumların sözçüləri vətəndaşları narahat olmamağa səsləyir, yolun isə nə zaman istifadəyə veriləcəyi məlum deyil...

**Bakıda "Formula-1" yarışlarının keçirilməsinə 10 gündən də az vaxt qalır. Artıq paytaxtın mərkəzi küçələrində hazırlıq işləri yekunlaşmaq üzrədir. Trek ətrafı ərazilərdə beton laylar, qoruyucu sədlər demək olar ki, tamamilə çəkilib. Bunun nəticəsində mərkəzi küçələrdə avtomobillərin hərəkəti çətinləşib və tıxac problemi yaşanır. Ümumilikdə isə əsas küçələrin aprelin 22-dən hissə-hissə bağlanacağı, aprelin 26-30-u tarixlərində isə tamamilə bağlı olacağı bildirilir. Doğrudur, artıq 4-cü ildir ölkəmizdə bu yarışlar təşkil olunur. Hər il mərkəzi küçələr bağlandığı üçün Bayıl massivində yaşayan sakinlər Badamdar yolundan istifadə etməklə, evlərinə gedirdilər. Eləcə də marşrut xətləri də müvəqqəti olaraq həmin yola dəyişdirilirdi. Lakin bu dəfə Badamdar yolunun da bağlanması şəhərin cənub istiqamətində yaşayanları narahat etməyə başlayıb.**




Onlar sual edirlər ki, 20-ci sahədə, Bayıl massivində yaşayanlar şəhərə necə gəlib-gedəcəklər, hansı alternativ yollar təklif olunacaq? Bundan əlavə, həmin ərazidən keçən 88 nömrəli marşrut xətlərinin avtobusları "Bakubus" şirkəti tərəfindən təmin olunur. Yeni avtobusların ölçü baxımından əvvəlkilərdən iri olması, onların dar yollarda hərəkət, manevr imkanlarını da zəifləldib. Bəs proses necə tənzimlənəcək?

Yada salaq ki, Badamdarda ötən ilin oktyabr ayında sürüşmə hadisəsi baş vermişdi. Həmin hadisə nəticəsində torpaq layı sürüşərək, avtomobil yolunun bir hissəsini tutmuşdu. Bu prosesdən sonra yolda hərəkət məhdudlaşdırıldı, ərazidə yaşayanların köçürüləcəyi xəbəri yayıldı. Rəsmilər əhalinin köçürüləcəyi açıqlamasını versələr də bu, gerçəkləşmədi. Sürüşmə zonasında bir neçə villa var ki, hazırda onlar nə sökülüb, nə də onlarla bağlı digər bu kimi tədbir görülməyib.

### Bəs belə olduğu halda yol nə üçün bağlıdır?

Hələ ötən aylarda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji Planlama Ekspedisiyasının rəisi, qərargah üzvü Əziz Qaralov mətbuata açıqlamasında bildirmişdi ki, ərazidə sürüşmə aktiv deyil. O, yolda hərəkətin sürüşməyə ciddi təsir etməyəcəyini söyləmişdi.

Hazırda isə onun məsələ ilə bağlı fikrini ala bilmədik. Ə. Qaralov "Yeni Müsavat"a bildirdi ki, bu gündən etibarən nazirlik daxilində ekspedisiyalar ləğv edilir:

**"Bu gün biz təhvil-təslim prosesindəyik. Artıq sürüşmə sahəsinə bizdən heç kim getməyəcək. Çünki ekspedisiya ləğv edilib, işçilər isə ixtisara salınıb..."**

Qeyd edək ki, yuxarıda qeyd etdiyimiz ekspedisiyanın üzvləri ərazidə mayaklar quraşdırıb, sürüşmənin vəziyyətini nəzarətdə saxlayırdılar.

### Bəs yolun məsələsi necə olacaq?

Avtosfer.az saytı məsələnin araşdırılması üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib. Oradan bildiriblər ki, hazırda həmin ərazidə təhlükə qaldığı üçün nəqliyyat vasitələrinin o yoldan istifadəsinə icazə verilməsi nəzərdə tutulmur. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən isə bildirilib ki, məsələ araşdırılacaq, əgər müvafiq komissiya yolun açılmasına müsbət rəy verərsə, o zaman həmin ərazidə avtomobillərin hərəkətinə icazə verilə bilər. Bildirilib ki, bütün bunlar aprelin 22-nə qədər öz həllini tapacaq.

Onu da qeyd edək ki, 2018-ci il oktyabrın 13-də həmin ərazidə sürüşmə baş verəndən etibarən, mütəxəssislərin rəyi gözlənilir. Hər dəfə rəsmilər açıqlama verəndə bildirirlər ki, mütəxəssislər rəy verdikdən sonra yolla bağlı qərar qəbul olunacaq. Mütəxəssislər isə rəy verməyə tələsmirlər. Yaxud da bunu ictimaiyyətə açıqlamağı lüzum bilmirlər....

Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polkovnik Vaqif Əsədov "Yeni Müsavat"a bildirib ki, vətəndaşlar qəti şəkildə narahat olmasınlar. Onun sözlərinə görə, yarışlara bir neçə gün qalmış ətraflı məlumat veriləcək.

**Avtobusların hərəkətinə nəzarət etməli olan Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev isə aşağıdakıları söyləyib:**

"Yarışlar üç gün davam edəcək və adi intervaldan fərqli olaraq, bu müddətdə avtobuslar gecə saat 3-ə qədər işləyəcəklər. Adi günlərdə avtobuslar axşam saat 11-12-yə qədər işləyir, yarış vaxtı isə avtobuslar daha çox işləyəcəklər. Əsas məqsədimiz bu cür tədbirlər keçirilən zaman nəqliyyatın fəaliyyətinin fasiləsiz təşkilini təmin etməkdir ki, insanların gündəlik güzəranına təsir göstərməsin. Artıq çoxdan alternativ yolların xəritəsi hazırlanır, heç kəs narahat olmasın, vətəndaşlara daha ətraflı məlumat veriləcək".

Yuxarıda da qeyd etdiyimiz kimi, yarışa cəmi 9 gün qalıb. Ancaq hələ ki alternativ yollar barəsində dəqiq məlumat yoxdur...

**"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) Marketinq və Kommunikasiya Departamentinin rəhbəri Nigar Arpadarai də yuxarıda səslənən fikirlərə oxşar cümlə işlədib. O bildirib ki, yollar qran-pri həftəsində məhdudlaşdırılacaq:** "Bununla bağlı öncədən hər şeyi bildirəcəyik".

❑ Əli RAİS,
"Yeni Müsavat"

# "Space"də söyüş söyən müğənnilərə həbs təhlükəsi

## Rüfət Axundov və Rəşad İlyasovun xüsusi ittiham qaydasında məhkəməyə verildiyi deyilir; ifaçılarla bağlı yeni qalmaqallar...

**Bir müddət bundan əvvəl "Space TV"nin canlı efirində qeyri-etik ifadələr işlətdiyinə görə müğənnilər Rüfət Axundov və Rəşad İlyasov xüsusi ittiham qaydasında məhkəməyə verilib. Bu barədə ONA məlumat yayıb. Məlumatda bildirilir ki, müğənnilər barəsində verilən şikayətdə onların hər ikisinin Cinayət Məcəlləsinin 148 (Təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma) maddəsinin sanksiyası çərçivəsində cəzalanması tələb edilib. İşin Yasamal Rayon Məhkəməsində hakim Günel Əkbərlinin sədrliyi ilə araşdırılacağı bildirilir.**





Məsələyə aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın əməkdaşı müğənni Rüfət Axundovla əlaqə saxlamağa çalışıb. Müğənninin Nemət adlı köməkçisi bildirib ki, yayılan məlumat yalan və əsassızdır: "Çox yanlış məlumatdır. Belə bir məhkəmə işi olsaydı xəbərimiz olardı".

**Əməkdar artist Rəşad İlyasov isə ONA saytına açıqlamasında bildirib ki, adıçəkilən məhkəmə işi "Space TV"yə aiddir:**

"Mən məhkəməyə verilməmişəm. Milli Televiziya və Radio Şurasının qərarına əsasən "Space" kanalı cərimələnib. Əgər kanal o cəriməni ödəməsə, məhkəməyə veriləcək. Bu qərar ifaçılara aid deyil".

**Qeyd edək ki, prodüser Tarix Əliyev aparıcılıq etdiyi "Hər şey daxil" verilişində AzTV tərəfindən Rəşad İlyasova 6 aylıq efir qadağası qoyulduğunu bildirib. Müğənni isə mətbuata açıqlamasında son günlər səhhətində problemlər olduğu üçün bir müddət AzTV və "Mədəniyyət" kanalında yayımlanan "Yaradanlar və yaşadanlar" verilişini aparmayacağını deyib:** "Son vaxtlar baş verən hadisələr mənə toxundu, səhhətim də yaxşı deyil. Buna görə də həm mən, həm də rəhbərlik belə qərara gəldik ki, bir müddət verilişi aparmayım. Vaxtını dəqiq bilmirəm, amma bir müddət aparıcılıq etməyəcəyəm".

**AzTV-dən "Yeni Müsavat"a verilən məlumata görə isə əməkdar artist Rəşad İlyasov 6 ay nəinki "Yaradanlar və yaşadanlar" verilişini aparmayacaq, eyni zamanda dövlət televiziyasının efirinə çıxmayacaq:** "Bildiyiniz kimi, dövlət televiziyasında Bədii Şura yaradılıb. Qurum MTRŞ-nin qərarını gözləyirdi. Doğrudur, MTRŞ-nin qərarında Rəşad İlyasovla bağlı o qədər də neqativlik yox idi. Lakin Bədii Şura qərara gəldi ki, Rəşad İlyasov 6 ay nəinki "Yaradanlar və yaşadanlar" verilişindən, həm də dövlət televiziyasının efirindən uzaqlaşdırılsın".

**Bu arada müğənni Rüfət Axundov ötən gün "Xəzər TV"nın efirinin canlı yayımının qonağı olub. Məlum qalmaqaldan sonra ilk dəfə efirə çıxan müğənni Rəşad İlyasovla birgə qeyri-etik ifadələr işlətdiyi üçün qonaq olduğu "Hər şey daxil" verilişində tamaşaçılardan üzr istəyib:** "Mən bir şeyi deyə bilərəm ki, xalqımıza görə bu yerə gəlib çıxmışıq. Xalqın gözü tərəzidir. Mənim mahnım səslənən zaman hadisə baş verib. Fonoqramın üstündə söz istifadə olunursa, burada mənim nə günahım? İndiyədək adım qalmaqallarda hallanmayıb. Səsimin üstünə səs gedirsə, bu, birbaşa montaj sayılır. MTRŞ-nin ədalətli qərarına görə təşəkkür edirəm. Əgər təqsirim varsa, üzr istəyirəm".

Canlı yayım zamanı Rüfət Axundov mahnı oxuyub. Lakin az keçməmiş onun mahnısı yarıda kəsilib, əvəzinə reklam keçidi olub.

Məsələ ilə bağlı mətbuata açıqlama verən MTRŞ-nin Aparat rəhbəri Asəf Hacıyev qeyd edib ki, bununla bağlı dərhal tədbir görülüb və müğənni efirdən uzaqlaşdırılıb. Adıçəkilən televiziya kanalının rəhbərliyi isə bildirib ki, müğənninin efirdə olmasından xəbərsiz olub.

Xatırladaq ki, Milli Televiziya və Radio Şurası (MTRŞ) "Space" TV-də "Hər səhər" verilişində müğənni Rüfət Axundovun mahnı oxuyarkən dəfələrlə qeyri-etik ifadələrdən istifadə etdiyini əsas gətirərək aprelin 5-də kanal rəhbərliyinin iştirakı ilə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, 5-8 min manat cərimə olunmasına dair protokol tərtib edib. Həmçinin televiziya və radio rəhbərlərinə şifahi xəbərdarlıq edilib ki, R.Axundovun efirə çıxmasına məhdudiyyət qoyulsun.

Bundan sonra MTRŞ televiziya barədə İnzibati Xətalar Məcəlləsinin 384.0.1-ci (televiziya və radio yayımı haqqında qanunvericiliyin pozulması, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən və kodsuz yayımlanan, o cümlədən, erotikanı və qəddarlığı əks etdirən proqramlar üçün müəyyən edilmiş xüsusi qaydaların pozulmasına) maddəsi ilə protokol tərtib edib və inzibati qaydada məhkəməyə müraciət edib. Məhkəmənin baxış iclası Yasamal Rayon Məhkəməsində aprelin 24-nə təyin edilib.

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"